24 yanvar 2020-ci il
№03 (8867)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**Qanlı 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ümumxalq ziyarəti**
➩səh.2

**2020-2021-ci tədris ili üzrə "Türkiyə bursları" təqaüd proqramı**
➩səh.3

**UNEC-də distant Çin dili kurslarını bitirən tələbələrə sertifikatlar təqdim olunub**
➩səh.5

**Elmi araşdırmalara görə dünyada liderlik edən ölkələr**
➩səh.6

# Namizədlər məntiqlə sınanmayacaq

### Müəllimlərin işə qəbulu qaydalarında dəyişiklik olunub



Müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə mərkəzləşdirilmiş qaydada işə qəbulu müsabiqəsinin test imtahanı mərhələsində dəyişiklik var. Builki müsabiqədə nəzərdə tutulan həmin dəyişikliyə görə, namizədlərə verilən test tapşırıqları, sadəcə ixtisas, təlim strategiyaları və metodika ilə bağlı olacaq. Beləliklə, növbəti tədris ilində müəllimlərin işə qəbulu müsabiqəsinin test mərhələsində imtahan verəcək namizədlərə ixtisasa aid 40, təlim strategiyaları və metodikaya aid 20 test tapşırığı veriləcək. Sözügedən dəyişiklik müəllimlərin sertifikasiyası ilə əlaqələndirilir.

Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində nəzərdə tutulan dəyişikliyi belə izah edib: ""Təhsil haqqında" Qanuna əsasən müəllimlər beş ildən bir sertifikatlaşdırmadan keçəcəklər. İşə qəbul edilən müəllimlər işə başladığı ilk 5 il ərzində sertifikatlaşdırmaya cəlb edilməyəcəklər. Sertifikatlaşdırma imtahanlarında məntiqə aid test tapşırıqları olmadığı üçün müəllimlərin işə qəbulu qaydalarında da dəyişiklik edilib".

➩Ardı səh.3

# STEAM bir trend kimi

### Niyə STEAM?

Mənə görə, STEAM-a bir təhsil fəlsəfəsi kimi baxılmalıdır, nəinki bir proqram kimi... Çünki 5 illik araşdırmalarımda gördüm ki, bu sahədə heç bir dəqiq standart yoxdur və bu termini hər bir ölkə və ya məktəblərin kurikulumunu yazanlar öz istədiyi kimi başa düşür.

Bu, 2012-ci ildə Amerikada Obama tərəfindən ölkənin gələcək mühəndis ehtiyaclarını qarşılamaq üçün ortaya atılan bir konseptdir. Çünki dünya artıq dərk etməkdədir ki, bəşəriyyətin inkişafının ana sütunu mühəndislərdir. Amerika da dərk etməkdədir ki, rəqibləri güclənir, onun siyasətini davam edərək, onu öz silahları ilə vura bilərlər, yəni ölkəyə beyin axını cəlb etməklə. Onun üçün də Amerikanın özü bu mühəndisləri yetişdirməlidir ki, bir gün bu axının qarşısı kəsilsə, çətin duruma düşməsinlər. Bizə qəribə gələ bilər bu düşüncə, amma daima uzaqgörən siyasət yürüdən Amerika yenə bunu dərk etməkdədir. Çünki iqtisadi güclə Amerika ilə ayaqlaşan böyük Çin var... Artıq biz müasir texnologiyada Çin-Amerika arasında soyuq müharibənin şahidiyik.

Amerikalı professor Con Vunun Hindistanla Amerikanı müqayisə etməsi də buna bir sübutdur: "Gəlin Hindistanda proqram təminatı sənayesinin inkişafına nəzər salaq. 1985-ci ildə Hindistan 24 milyon dollar dəyərində proqram ixrac etmişdir. 2000-ci ildə onlar 350 milyon dollarlıq ixrac etsələr də, 2009-cu ildə bu rəqəm 85 milyard dollar oldu, bu il isə maliyyə böhranına baxmayaraq, Hindistanda proqram ixracatının ilin sonunadək xalis 100 milyard dollar olacağını ehtimal edirlər. Bu sənayenin ixrac potensialının və onun "arxaik" təhsil sisteminin tanınması prosesi olduqca zəifdir. Hindistanın əksər proqram şirkətləri öz xalqının inkişaf edən texnologiya ilə ayaqlaşmasını təmin etmək üçün təhsil proqramlarına külli miqdarda investisiyalar yatırırlar. Hindistanın böyük şirkətləri təlimlər üzrə ABŞ və Avropadan qat-qat çox, öz illik gəlirlərinin 8 faizi qədər böyük bir məbləğ xərcləyirlər. Wall Street Jurnalı məlumat verir ki, Yaponiya və Avropa şirkətləri işçilərin maarifləndirilməsi istiqamətində öz fəaliyyət büdcələrinin 4 faizi həcmində maddiyyat sərf etdikləri halda ABŞ şirkətləri bunun üçün yalnız 2.5 faiz xərcləyir".

Yeni mühəndis ixrac etməkdənsə, özün yetişdir prinsipi ilə düşünür Amerika. Mühəndislər isə həmişə sabahların qurucuları olublar.

➩Ardı səh.8

# Dünyada kadrlar necə seçilir?

Dövlətin müxtəlif sferalarda fəaliyyətinin uğuru dövlət işçilərinin yerinə yetirdikləri vəzifələrin keyfiyyətindən asılıdır. Azərbaycan kimi gənc dövlətlər üçün kadr siyasəti gündəmdə duran öncül məsələlərdəndir. Təməlli oturuşmuş dövlətlərdə bu problem bir növ sistem halına salınıb. Onillərdir ki, sistemlər "konveyer" üsulu ilə kadrlar "istehsal" edir və dövlətin fəaliyyətindən irəli gələn ehtiyacları ödəyir. Yeni təşəkkül tapan və formalaşmaqda olan dövlətlərdə isə bu prosesə sıfırdan start verilməlidir.

Məlumdur ki, vətəndaşın kadr olması yolunda keçdiyi ilk mərhələ təhsildir. Daha doğrusu, təhsilin keyfiyyəti. Azərbaycan tarixində bir neçə belə nümunə var ki, dövlət idarəetmə aparatının savadlı kadrlarla təminatı məqsədilə vətəndaşların yüksək səviyyəli təhsili naminə bir sıra qeyri-ənənəvi addımlara müraciət edilib. Məsələn, Azərbaycan Demokratik Respublikası dövründə hökumət gənclərin xarici dövlətlərin aparıcı ali məktəblərində təhsilinin təşkili üçün mühüm addımlar atıb. Bu ənənənin davamı olaraq sovet illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə milli kadr ehtiyatının zənginləşdirilməsi məqsədilə gənclərin ittifaqın aparıcı təhsil ocaqlarına ezam edilməsi praktikasından geniş istifadə olunub, müstəqillik qazanıldıqdan sonra vaxtilə görülmüş bu tədbirin misilsiz əhəmiyyətini dövlət idarəçiliyinin fərqli sferalarında hər birimiz hiss etmişik.

Hazırda hər bir Azərbaycan vətəndaşı yüksək səviyyəli təhsil almaq hüququna malikdir. İstər ölkə daxilində, istər xaricdə. Dövlət xaricdə təhsil alıb ölkəyə qayıtmış gənclərin işlə təminatı prosesini tənzimləyərək bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirir. Eyni zamanda, kadr ehtiyatının zənginləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində də Azərbaycan tarixində ilk olan addımlar atılır. Bu nöqteyi-nəzərdən Azərbaycan Prezidenti İlham Əliyevin "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında imzaladığı sərəncamını xüsusi qeyd etmək lazımdır.

Qloballaşan dünyanın əmək bazarında yaxın bir neçə ildə inqilabi hadisələr baş verəcək. Müasir texnologiyalar, əsasən də süni intellektin idarəetmənin ən müxtəlif sahələrinə tətbiqi əmək münasibətlərində köklü dəyişikliklərə səbəb olacaq. Müxtəlif araşdırmaların ümumiləşdirilmiş nəticələrinə əsasən, yaxın 10-12 il ərzində ABŞ-da hazırda mövcud olan peşələrin tən yarısı aktuallığını itirəcək. Bu sahələrdə insanları süni intellekt əvəzləyəcək. Qərbin böyük korporasiyaları bildirirlər ki, yaxın 2-3 ildə daxildəki bir sıra funksiyaların icrasını insandan alıb robotlara təhvil verəcəklər. Belə bir mürəkkəb və dəyişkən reallıqda gələcəyin peşələri və onları icra edəcək kadrlara dair siyasət o qədər dəqiqliklə işlənməlidir ki, Azərbaycan qabaqcıl dünyanın aparıcı trendlərindən geridə qalmasın.

➩Ardı səh.6



# Universal robot-jurnalist sınaqdan keçirilir

Səh.7

## Məktəbli forması nümunələri ilə bağlı ictimai rəy öyrənilir

2020-2021-ci tədris ili üzrə şagirdlərin geyim formalarının təsvirlərini müəyyən edən layihəyə dair ictimai rəyin öyrənilməsinə başlanılır.

Layihəyə görə qızlar üçün yay geyim forması qısaqol köynək və ətəkdən, qış geyim forması isə uzunqol köynək, ətək və önü zəncirbəndlə bağlanan cibli jaketdən ibarət olacaq. Oğlanlar üçün yay fəslində tətbiq edilən geyim forması qısaqol köynək və şalvardan, qış geyim forması isə uzunqol köynək, şalvar və önü zəncirbəndlə bağlanan cibli jaketdən ibarət olacaq.

Geyim formaları elementlərinin aşağıdakı rənglərdə hazırlanması nəzərdə tutulur:

- Ətək və şalvar - qara, tünd qəhvəyi, tünd boz, tünd göy və qəhvəyi-yaşıl;
- Köynək - ağ, dəri, mavi, açıq yaşıl və açıq sarı;
- Jaket - tünd boz, qəhvəyi, tünd göy, tünd yaşıl və açıq qəhvəyi.

Geyim formasının rəngi ümumi təhsil müəssisəsinin Pedaqoji Şurasının qərarı ilə müəyyən ediləcək. Ümumi təhsil müəssisəsində yalnız bir geyim forması tətbiq edilə bilər. Dövlət ümumi təhsil müəssisələrinin şagirdləri məktəbdə və təntənəli məktəb tədbirlərində (məktəbdən kənarda olsalar da belə) müəyyən edilmiş geyim formasını geyinməlidirlər.

Layihə ilə bağlı rəy və təkliflər 31 yanvar 2020-ci il tarixinədək mövzu bölməsinə "Məktəbli forması" yazılmaqla *office@edu.gov.az* elektron poçtuna göndərilə bilər.

Təhsil Nazirliyi valideynləri, şagirdləri, müəllimləri, müxtəlif ictimai birlikləri və bütün maraqlı tərəfləri muzakirəyə çıxarılmış məktəbli formasının layihəsinə dair rəy, irad və təkliflərin göndərilməsində fəal olmağa dəvət edir.

## Respublika fənn olimpiadalarının rayon (şəhər) mərhələsinin nəticələri açıqlanıb

Respublika fənn olimpiadalarının rayon (şəhər) mərhələsinin nəticələri açıqlanıb. Respublika mərhələsinin yarımfinal turunda iştirak edəcək şagirdlərin adlı siyahısı ilə *www.olimpiada.edu.az* saytından tanış olmaq mümkündür. Şagirdlərin ümumi nəticələri barədə məlumat yerli Təşkilat komitələrinə göndərilib.

Olimpiadanın bu mərhələsində 33784 şagird iştirak edib. Bilik yarışına IX, X, XI, həmçinin xüsusi istedada və hazırlığa malik VIII sinif şagirdləri qatılıblar. Respublika fənn olimpiadaları Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, informatika, tarix və coğrafiya fənləri üzrə keçirilib.

Qeyd edək ki, rayon (şəhər) mərhələsində uğur qazanan şagirdlər və ötən tədris ili üzrə beynəlxalq fənn olimpiadalarının qalibləri respublika mərhələsinin yarımfinal turunda iştirak edəcəklər. Növbəti mərhələyə qeydiyyat 5-15 fevral 2020-ci il tarixlərində *www.olimpiada.edu.az* saytı vasitəsilə həyata keçiriləcək.

Olimpiadaların təşkil edilməsində məqsəd istedadlı uşaqların aşkar edilməsi, şagirdlərdə fənlərə olan marağın artırılması, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələrinə imkan yaradılmasından ibarətdir.

Respublika fənn olimpiadaları "Kapital Bank"ın baş sponsorluğu ilə həyata keçirilir.





# Qanlı 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ümumxalq ziyarəti

## Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.

***

Qanlı Yanvar hadisələrindən 30 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 30 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinin üzərinə sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi. Məhz ümummilli lider Heydər Əliyevin bu cəsarətli addımı sayəsində dünyanın mütərəqqi qüvvələri də Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru qətiyyətlə pislədi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı, SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Vaxtında dərindən araşdırılmayan və lazımi qiymətini almayan faciəyə yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra məhz Ulu Öndərin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar şəhidlərinin xatirəsini dərin ehtiramla yad edir. Faciənin otuzuncu ildönümü ilə əlaqədar Azərbaycanda və dünyanın müxtəlif ölkələrində silsilə anım mərasimləri, sərgilər, konfranslar keçirilir, bu qanlı qırğın, eləcə də Azərbaycan xalqının müstəqillik əzminin sarsılmazlığı bütün dünyaya çatdırılır. Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il dekabrın 13-də “20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında” Sərəncam imzalayıb. 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik mübarizəsində yeri və rolunun xüsusi vurğulandığı həmin Sərəncamda deyilir: “1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar”.

Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır.

***

Yanvarın 20-də - Ümumxalq Hüzn Günündə dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev iştirak ediblər.

# 20 Yanvar şəhidlərinin xatirəsi anılıb

## Bakı Musiqi Akademiyasında 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan anım mərasimi keçirilib

**Oruc MUSTAFAYEV**



Yanvarın 17-də Bakı Musiqi Akademiyasında 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan anım mərasimi keçirilib. Tədbirdə Təhsil Nazirliyinin rəhbərliyi, ali məktəblərin rektorları, Bakı Musiqi Akademiyasının müəllim-tələbə heyəti, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Təhsil naziri Ceyhun Bayramov tədbirdə çıxış edərək 1990-cı il yanvarın 20-də keçmiş sovet dövlətinin silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı aksiyanın insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixə düşdüyünü bildirib.

“Bu qanlı faciədə Vətənin azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar. Qanlı 20 Yanvar hadisələrindən 30 il ötsə də, onun ağrı-acısı nəinki azalmış, hətta artmışdır. Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, ərazilərimizin işğalına, soydaşlarımızın Ermənistandan və Dağlıq Qarabağdan qovulmasına etiraz olaraq ayağa qalxmış Azərbaycan xalqına qarşı törədilmiş bu qanlı aksiya əslində ermənilərin Azərbaycan ərazisində məskunlaşdırılması, xalqımıza qarşı etnik təmizləmə və soyqırımı siyasətinin növbəti bir mərhələsi idi. Sovet hakimiyyəti 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə bütün beynəlxalq hüquq normalarını pozaraq ölkə qanunvericiliyinə zidd olaraq heç bir xəbərdarlıq etmədən dinc əhaliyə qarşı hərbi təcavüz edib. Yüzlərlə vətəndaşımız, qocalar qadınlar, uşaqlar xüsusi amansızlıqla qətlə yetirilib. Hətta insanların yardımına gələn səhiyyə işçiləri, tibbi yardım maşınları gülləbaran edilib”.

Təhsil naziri qətliamın səhərisi günü - 21 yanvar tarixində xalqımızın böyük oğlu Heydər Əliyevin öz həyatını təhlükə altına qoyaraq ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gələrək cinayəti törətmiş SSRİ rəhbərliyinə və Azərbaycanın yarıtmaz rəhbərliyinin siyasətinə qəti etirazını bildirdiyini xatırladıb.

Nazir xüsusi olaraq qeyd edib ki, bu hadisələr zamanında araşdırılmayıb. Yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə gəldikdən sonra onun iradəsi ilə hadisələrə dövlət səviyyəsində hüquqi - siyasi qiymət verilib. Ceyhun Bayramov bildirib ki, Ümummilli Liderin təşəbbüsü ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan edilib və hər il qeyd olunur.

Təhsil naziri söyləyib ki, 20 Yanvar Azərbaycan xalqının milli birlik və həmrəylik rəmzinə çevrilib: “Bu gün ölkəmizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü naminə qəhrəmanlıq göstərərək canlarından keçən, milli mənafeyi hər şeydən üstün tutan mübariz oğul və qızların xatirəsi böyük minnətdarlıq və ehtiramla yad edilir”.

Nazir diqqətə çatdırıb ki, Təhsil Nazirliyi tərəfindən 20 Yanvarla bağlı mövzular ümumtəhsil səviyyəsində tədrisə daxil edilib:” Qanlı faciənin 30-cu ildönümü ilə bağlı ölkənin bütün təhsil müəssisələrində dərslər keçilir, müzakirələr təşkil edilir. Hesab edirik ki, 20 Yanvarla bağlı dərslərin keçirilməsi gənclərin vətənpərvərlik ruhunda böyüməsi və tərbiyə olunması, milli ruhun yüksəldilməsi, vətənə və xalqa bağlılıq, ölkənin müstəqilliyinin xalqımız və dövlətimiz üçün nə qədər böyük nemət olduğunu bir daha yada salır. Bu istiqamətdə atılan hər bir addım olduqca vacibdir”.

Daha sonra çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar 20 Yanvar hadisələrinin mənəvi, siyasi aspektlərindən söz açıb. O, 20 Yanvar faciəsinin səbəbkarlarından, Mixail Qorbaçovun cinayətkar əməllərindən danışıb, törədilən vəhşiliklərdə ermənilərin fəal iştirakına aid faktlar söyləyib.

Tədbir çərçivəsində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Baku Chamber Orchestra” kamera orkestrinin ifasında kompozisiyalar səsləndirilib.

### Təhsil işçiləri Şəhidlər xiyabanını ziyarət edib

Yanvarın 20-də Təhsil Nazirliyinin kollektivi 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib.

Təhsil Nazirliyinin rəhbərliyi, nazirliyin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin kollektivi, tabe qurumların əməkdaşları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini ehtiramla yad edib, məzarları üzərinə qərənfillər düzüblər.

## Təhsil naziri Salyanda vətəndaşları qəbul edib

Yanvarın 23-də Təhsil naziri Ceyhun Bayramov Salyan şəhərindəki Heydər Əliyev Mərkəzində Hacıqabul, Salyan rayon və Şirvan şəhər sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Təhsil naziri Ceyhun Bayramov və Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2020-ci ilin yanvar ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq həyata keçirilən qəbulda Hacıqabul, Salyan rayonlarında və Şirvan şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin yerdəyişməsi, işlə təmin olunma, məktəb binalarının əsaslı təmir və tikintisi, dərs saatlarının bölgüsü, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

## Latviyanın ölkəmizdəki səfiri ilə görüş

Yanvarın 17-də Təhsil naziri Ceyhun Bayramov Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Daynis Qarançs ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

## 2020-2021-ci tədris ili üzrə "Türkiyə bursları" təqaüd proqramı

Türkiyə Respublikası tərəfindən 2020-2021-ci tədris ili üzrə "Türkiyə bursları" təqaüd proqramı elan olunub.

Təqaüd proqramı bakalavriat, magistratura və doktorantura səviyyələrini əhatə edir.

Proqramda iştirak üçün sənədlərin qəbulu *https://turkiyeburslari.gov.tr/en/page/prospective-students/how-to-apply* internet səhifəsində göstərilən qaydada həyata keçirilir. Sənəd qəbulunun son müraciət tarixi 20 fevraldır.

## Şagirdlərin yerdəyişməsi müvəqqəti dayandırılır

Yanvarın 25-dən fevralın 13-dək şagirdlərin elektron yerdəyişməsi *(www.sy.edu.az)* portalında və bu məqsədlə yaradılmış Alternativ Qeydiyyat mərkəzlərində yerdəyişmə ilə bağlı sorğuların qəbulu dayandırılacaq. Həmin tarixədək qəbul edilmiş sorğuların icrası davam etdiriləcək.

Sorğuların qəbulunun müvəqqəti dayandırılması məktəblərdə siniflərin komplektləşdirilməsi ilə bağlıdır.

Qeyd edək ki, bugünədək elektron yerdəyişmə ilə bağlı ümumilikdə 93610 müraciət daxil olub. Onlardan 85250 şagirdin digər təhsil müəssisəsinə yerdəyişməsinə icazə verilib, 4132 sorğu hazırda icra edilir, 4228 sorğuya isə dil uyğunsuzluğuna, daxili müsabiqə keçirən lisey və məktəb-liseylərin müsabiqə nəticələrinə əsasən imtina verilib.

Şagird yerdəyişməsinin elektronlaşdırılması bu prosesdə məktəb və valideyn arasında olan məsafənin azaldılmasına və valideynin təhsil müəssisəsi ilə təmasının daha şəffaf şəkildə təşkilinə xidmət edir. Şagirdlərin yerdəyişməsi prosesi 2019-cu ilin avqustun 15-dən *www.sy.edu.az* portalı və alternativ qeydiyyat mərkəzləri vasitəsilə həyata keçirilir.

# Təhsil naziri olimpiada qalibləri ilə görüşüb

Yanvarın 17-də Təhsil naziri Ceyhun Bayramov ölkəmizi yeniyetmələrin XVI Beynəlxalq Elm Olimpiadası və XVI Beynəlxalq Jautikov Olimpiadasında uğurla təmsil edən məktəblilərlə görüşüb.

Görüşdə Təhsil naziri Ceyhun Bayramov olimpiada qaliblərini qazandıqları uğur münasibətilə təbrik edərək bu uğurların davamlı olacağına əminliyini bildirib. Təhsil naziri müasir dünyada təhsilin mühüm rolunu qeyd edib, həmçinin son illərdə təhsilimizin inkişafı istiqamətində həyata keçirilən tədbirləri, məktəblilərimizin beynəlxalq səviyyədə qazandığı uğurları diqqətə çatdırıb.

Sonra nazir məktəblilərə öz tövsiyələrini verib, onlara yeni-yeni nailiyyətlər arzulayıb.

Görüşün sonunda olimpiada qaliblərinə hədiyyələr təqdim edilib və xatirə fotosu çəkdirilib.



Qeyd edək ki, Qazaxıstanın Almatı şəhərində keçirilən 16-cı Beynəlxalq Jautikov Olimpiadasında Azərbaycan məktəbliləri 1 qızıl, 3 gümüş və 4 bürünc medal olmaqla ümumilikdə 8 medal əldə ediblər.

Qətərin paytaxtı Dohada keçirilən Yeniyetmələrin XVI Beynəlxalq Elm Olimpiadasında isə məktəblilərimiz 4-ü gümüş, 2-si bürünc olmaqla ümumilikdə 6 medal qazanıblar.

# Təhsilin prioritetləri dəyişdikcə kitabxana işi təkmilləşməlidir

### Təhsil Nazirliyində rusiyalı qonaqlarla müzakirə aparılıb

Yanvarın 23-də Təhsil Nazirliyində M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının nümayəndələri ilə görüş keçirilib. Qonaqları salamlayan Təhsil nazirinin müavini Firudin Qurbanov son illər intensiv xarakter alan və müxtəlif sahələrdə dinamik inkişaf edən Azərbaycan-Rusiya əməkdaşlığından danışıb, iki ölkə arasında əlaqələrin qarşılıqlı faydalı prinsiplər əsasında qurulduğunu və hər iki ölkənin dövlət siyasətinə uyğun olduğunu diqqətə çatdırıb. Nazir müavini Rusiya ədəbiyyatı nümunələrinin, rus mütəfəkkirlərinin əsərlərinin Azərbaycan dilinə, ötən il ölkəmizdə 650 illiyi qeyd olunan böyük mütəfəkkir İmadəddin Nəsiminin bir sıra əsərlərinin rus dilinə tərcümə olunduğunu vurğulayıb.

Təhsil nazirinin müavini Rusiya və Azərbaycan arasında humanitar, mədəni əlaqələrin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun, Fondun vitse-prezidenti Leyla Əliyevanın çox işlər gördüyünü, bu sahədə bir sıra mühüm layihələrin həyata keçirildiyini qeyd edib. Rusiya və Azərbaycan arasında təhsil sahəsində çox yaxşı əlaqələrin mövcud olduğunu deyən F.Qurbanov ali təhsil sahəsində əməkdaşlıqdan bəhs edib. Qeyd edib ki, Bakıda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, eləcə də Seçenev adına Moskva Birinci Tibb Universitetininin filialları fəaliyyət göstərir ki, bu təhsil ocaqlarında ümumilikdə 1000-dən artıq tələbə təhsil alır. Bundan əlavə, Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialı, Azərbaycan-Rusiya Ali Məktəbləri Assosiasiyası fəaliyyət göstərir.



Təhsil nazirinin müavini müasir rəqəmsallaşma və texnologiyalar dövründə gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinin çox mühüm prioritet olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, təhsilin prioritetləri dəyişdikcə kitabxana işi təkmilləşməli və dəyişməlidir.

Rusiyalı qonaqlar Azərbaycanda rus dilinə ayrılan diqqətdən məmnunluqlarını bildirərək kitabxana işinin təkmilləşdirilməsi sahəsində müsbət təcrübənin aparılması zəruriliyi və bu sahədə aparılan işlər barədə məlumat veriblər. Bildirilb ki, rəqəmsallaşma dövründə kitabxana işinin təkmilləşdirilməsi böyük əhəmiyyət kəsb edir. İnformasiyaların sürətlə yayılması dövründə yeni biliklərin, elmi məlumatların dərsliklərdə yer alması zərurəti yaranır.

Qonaqlar MDB məkanında kitabxana işinin təkmilləşdirilməsi və mübadiləsi sahəsində həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

# Namizədlər məntiqlə sınanmayacaq

### Müəllimlərin işə qəbulu qaydalarında dəyişiklik olunub

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Eşqi Bağırovun sözlərinə görə, təhsilverənlərin sertifikatlaşdırılması hazırda onların bilik və bacarığını, eyni zamanda peşə yararlılığını ölçən qiymətləndirmə mexanizmidir: "Sertifikatlaşdırma prosesində müəllimlərə məntiqə aid sualların qoyulması nəzərdə tutulmayıb. Müsabiqə proqramında yalnız müəllimin ixtisasına və peşəsinə uyğun suallar təqdim edilir. Sertifikatlaşdırmanın keçirilməsi ilə bağlı "Təhsil haqqında" Qanuna edilən dəyişikliklərə əsasən mərkəzləşdirilmiş qaydada müəllimlərin işə qəbulu müsabiqəsinin nəticəsində ilk dəfə işə qəbul edilən müəllimlər işə başladığı ilk beş il ərzində serifikatlaşdırmadan keçməyəcəklər. Yəni, müəllimlərin işə qəbulu imtahanlarından keçənlər sertifikatlaşdırma prosesindən də keçmiş sayılırlar. Bu da proseslərin məzmununu eyniləşdirmək zərurəti yaradıb".

Şöbə müdiri onu da əlavə edib ki, bu, müəllimlərin işə qəbulu müsabiqəsində həyata keçiriləcək yeganə dəyişiklik deyil: "Növbəti həftə ərzində digər dəyişikliklər barədə də ictimaiyyətə məlumat veriləcək.

Xatırladaq ki, müəllimlərin mərkəzləşdirilmiş qaydada işə qəbulu 4 mərhələdə aparılır. Elektron ərizələrin qəbulundan sonra göstəricilərin qiymətləndirilməsi, daha sonra test imtahanı, vakant yerlərin seçilməsi və müsahibə həyata keçirilir. Test imtahanı mərhələsində namizədlərə 40 ixtisas, 20 təlim strategiyaları və metodikaya aid sual təqdim edilir. Bu mərhələdə keçid balını toplamış namizədlər 8 vakant yer seçir. Namizədlərin vakant yerlərə yerləşdirilməsi elektron ərizələrində qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılır. Müsahibə mərhələsində test imtahanlarının nəticələrinə əsasən, vakant yer tutmaq hüququ qazanan namizədlərin peşəkar kompetensiyaları, psixoloji hazırlığı və ümumi dünyagörüşü yoxlanılır.

# Təhsil gələcəyin ən yaxşı sərmayəsidir

**Oruc MUSTAFAYEV**

### Beynəlxalq Təhsil Günü ilə bağlı YUNESKO-nun baş direktorunun dünya ölkələrinə müraciəti yayımlanıb

24 yanvar Beynəlxalq Təhsil Günü ilə bağlı YUNESKO-nun baş direktoru xanım Odre Azulenin dünya ölkələrinə müraciəti yayımlanıb. Müraciətdə qeyd olunur ki, bu beynəlxalq gündə insanların, firavanlığın, planetin və sülhün mənafeyi naminə bəşəriyyətin gələcəyi üçün ən vacib olan dörd fəaliyyət sahəsindəki səylərimizin uğurlu olmasını təmin edə biləcək təhsilin böyük potensialına hörmətlə yanaşırıq. Beləliklə də bu gün bizə bir daha təhsilin bəşəriyyətin əvəzolunmaz bir qaynağı və dünyada milyonlarla insanın hələ də məhrum olduğu bir qaynaq olduğunu göstərir.

Müraciətdə bildirilir ki, YUNESKO-nun Statistika İnstitutu tərəfindən təsdiqlənən qlobal təlim böhranı ciddi narahatlığa səbəb olub. "Və bu, başa düşüləndir: təhsilin dayanıqlı inkişaf məqsədlərinə çatmağın açarı olduğunu nəzərə alsaq, təhsil böhranı, rifah, planet, dünya və insanlar üçün, çiçəklənmə üçün yuxarıda göstərilən fəaliyyət sahələrinin hamısı üçün ciddi çətinliklər deməkdir".

Qeyd olunur ki, BMT-nin Davamlı inkişaf sahəsində Məqsəd 4-ün həyata keçirilməsi çərçivəsində beynəlxalq birliyin fəaliyyətinin əlaqələndirilməsi - "Keyfiyyətli təhsilə hamılıqla təminat" bu mənada böyük məsuliyyət daşıyır. "Məhz bu səbəbdən hər dörd istiqamətdə konkret addımlar atırıq. Əvvəla YUNESKO, təhsili inklüzivliyin artırılması üçün bir vasitə kimi istifadə edərək, hər kəs tərəfindən öz hüquq və imkanlarının tam şəkildə həyata keçirilməsində insanların marağına uyğun addım atır".

YUNESKO tarixində mühüm məqama çevrilən və bu günə qədər davam edən böyük savadlılıq kampaniyaları milyonlarla kişi və qadın üçün imkanlar pəncərəsini açıb. Hər bir insanın belə imkanlara sahib olmasını təmin etmək üçün YUNESKO bu gün akademik mobilliyi təşviq etmək üçün səylər göstərir. Bu mənada əlamətdar hadisə, Ali Təhsil Sertifikatlarının tanınması haqqında ilk Qlobal Konvensiyanın Baş Konfransının 40-cı sessiyasında qəbul edilməsi oldu. Təhsil üçün fəaliyyət tərəqqi üçün hərəkət etmək deməkdir. Axı təhsil gələcəyin ən yaxşı sərmayəsidir. Təhsil orta və uzunmüddətli dövrdə yoxsulluq və bərabərsizliyi azaltmaq və sosial inteqrasiyanı təşviq etmək üçün ən təsirli yoldur. Buna görə də "Təhsil bizim gələcəyimizdir" təşəbbüsü çərçivəsində YUNESKO qadınların təhsilini dəstəkləyir, həmçinin təhsildəki suallara cavab verməyə imkan verir. YUNESKO bütün üzv dövlətləri ekoloji təhsil və tərbiyəni məktəbəqədərdən tutmuş ali təhsilə qədər öz tədris planlarına daxil etməyə çağırıb. Bu problemi həll etmək üçün dövlətləri Təşkilatın təcrübəsi və bilikləri ilə təmin etməyə hazırıq.

Təhsilin dünyada sülhün qorunmasında ən vacib alət olduğu bildirilən müraciətdə qeyd olunur ki, "səylərimizin birləşdirilməsi və gücləndirilməsi məsələsinin hər zamankından daha aktual olduğu bir dövrdə, YUNESKO bu fürsətdən istifadə edərək, təhsil maraqları üçün hərəkətə keçir. Hamımız - yüksək səviyyəli siyasi liderlər və sıravi vətəndaşlar, dövlət orqanları və ictimai təşkilatlar, müəllimlər və valideynlər - hər kəs öz yerində, hər kəsin təhsil hüququ əldə etməsi üçün hər şeyi etməlidir. Bu, gələcək nəsillər qarşısında bizim məsuliyyətimizdir".

# Media təhsili və media savadlılığı bütün ölkələr üçün aktuallıq kəsb etməkdədir

## *Firudin QURBANOV:* "Media təhsilinin əsas missiyası müasir informasiya şəraitində yeni nəsli gələcək həyata hazırlamaqdır"



Təhsil nazirinin müavini Firudin Qurbanov Media Savadlılığı üzrə Mərkəzin "Connections" adlı elektron jurnalına müsahibə verib.

Jurnal ötən ilin iyun ayında Tbilisi şəhərində keçirilən Şərq Tərəfdaşlığı ölkələri təhsil nazirlərinin görüşündə nazir müavini Firudin Qurbanovun bank sektorunun yeni işçiləri işə qəbul edərkən hansı meyarları əsas götürməsi ilə bağlı maraqlı düşüncələrinə qayıdıb və bu düşüncələrin onun təhsil fəlsəfəsiylə hansı formada əlaqəli olması ilə maraqlanıb.

### "21-ci əsrdə verilən təhsil daha çevik, xüsusilə əldə olunan bilik və bacarığın tətbiqi imkanlarını şərtləndirən bir vasitə olmalıdır"

Firudin Qurbanov jurnal əməkdaşının sualına belə cavab verib:

- 21-ci əsrdə texnologiyanın sürətli inkişafı həyatın müxtəlif sahələrinə əhəmiyyətli dərəcədə təsir etdiyi kimi, formal təhsildən də yan keçməyib. Bu gün təhsil baxımından əldə olunan nailiyyətlərin praktikada tətbiqi arasında zaman uyğunsuzluğu mövcuddur və sənaye bir çox hallarda bu uyğunsuzluğu həzm edə bilmir. Formal təhsil çərçivəsində əldə olunan bilik və bacarıqların müəyyən zaman kəsiyindən sonra tətbiqi imkanları məhdudlaşır və ya əldə olunan bilik artıq arxaikləşir. Bu baxımdan daha qısa müddətə əldə olunan, xüsusilə peşəyönümlü ixtisaslar daha cəlbedici olur. İnsanlar həm zaman, həm də maliyyə baxımından daha az məsrəfli intensiv kurslara üstünlük verir.

Bu kontekstdə 21-ci əsrdə verilən təhsil daha çevik olmalı, xüsusilə əldə olunan bilik və bacarığın tətbiqi imkanlarını şərtləndirən bir vasitə olmalıdır.

Eyni zamanda, müasir dövrdə şəxsiyyətin məsuliyyətli şüurunun formalaşdırılması üçün bir çox amillərin rolu olduqca əhəmiyyətlidir: fərdi şüurun, insan mənəviyyatının inkişaf səviyyəsi, sosial həyatda fəaliyyəti.

### "Belə kompetensiyalardan biri media savadı təhsilidir"

Media savadlılığı üzrə təhsil çərçivəsində insanların/tələbələrin tənqidi təfəkkürünün inkişaf etdirilməsinin, bunun onların daha yaxşı qərar verməsinə təsiri, ümumiyyətlə, media təhsilinin əhəmiyyəti ilə bağlı suala cavab verərkən F.Qurbanov deyib:

- Müasir dövrdə kütləvi kommunikasiya vasitələri və təhsil sistemi şəxsiyyətin formalaşmasında əsas sosiallaşdırıcı institutlar kimi çıxış edir.

Buna görə də təhsil sisteminin inkişaf konsepsiyasının sivilizasiyanın inkişaf səviyyəsinə uyğunlaşdırılması müasir dövrdə mühüm əhəmiyyət kəsb edir.

Son dönəmlərdə aparılan tədqiqatlarda uşaqlarda müasir dünya və gələcək naminə səriştələrin formalaşdırılması mövzusu üstünlük təşkil edir. Əksər hallarda mədəniyyətlərarası kommunikasiya, media savadlılığı, rəqəmsal bacarıqlar, kritik düşüncə, innovativlik, adaptivlik (uyğunlaşma) kimi anlayışlar səslənir.

Yeni qlobal informasiya cəmiyyətində həyat hədəflərinin və layihələrin reallaşdırılması vətəndaşların informasiya məkanına nə dərəcədə cəlb olunmasından asılıdır. Beləliklə, insanların şüuruna təsir etmək missiyası informasiya sahəsinə keçir. Bu cür şəraitdə təhsil sistemi qarşısında insanların yeni həyat fəaliyyətinə uyğunlaşmasını təmin edən kompetensiyaların formalaşması ilə bağlı yeni problemlər yaranır.

Belə kompetensiyalardan biri media savadı təhsilidir. Media savadlılığını informasiya mənbələri və axını ilə kifayət qədər səmərəli qarşılıqlı əlaqə qurma, axtarış aparmaq, təhlil etmək, tənqidi qiymətləndirmək və müxtəlif kütləvi informasiya, kommunikasiya vasitələrilə yayılan media mətnləri yaratmaq qabiliyyəti kimi müəyyən etmək olar. Media savadı təhsilinin əhəmiyyəti, ilk növbədə, məhz bəhs etdiyimiz məqamlarla bağlıdır. Digər tərəfdən, media savadı təhsili şəxsiyyətin formalaşmasında getdikcə daha çox rol oynayır. YUNESKO-nun əsas sənədlərinə əsasən, media təhsili insan hüquqlarının dəstəklənməsi, gənclərin sülh, ədalət, azadlıq, qarşılıqlı hörmət və anlaşma ruhunda formalaşmasında mühüm rol oynayır.

F.Qurbanovun sözlərinə görə, qlobal media mədəniyyəti bu gün dünyada çox genişlənib və o, fəal təsirə malikdir. Media mədəniyyəti özündə informoloji, həm də kulturoloji aspektləri ehtiva edir. Beləliklə, müasir cəmiyyətdə informasiya mədəniyyəti kitabxanalara, mediaya, kompüter şəbəkələrinə istiqamətlənməyə imkan verən tətbiqi biliklər toplusundan daha çox, şəxsiyyətin inkişafının müəyyən meyarlarını, qavrama dialoqunu, variativliyini, biliklər sisteminin aşkarlığını səciyyələndirir.

Nazir müavini bildirib ki, XXI əsrdə media təhsili dedikdə, həm də media ilə ünsiyyət mədəniyyətinin formalaşması, kritik düşüncə, yaradıcı və kommunikativ bacarıqların inkişafı, media mətnlərinin təhlili və qiymətləndirilməsi, media texnikalarından istifadə bacarıqlarının öyrədilməsi kimi məsələlər nəzərdə tutulur.

### "...Honkonqlu professorun öz qız övladı ilə bağlı söylədiyi, doğrudan da təsirlidir və günümüzün reallığıdır"

F.Qurbanov işə qəbul olunan hər bir mütəxəssisdə bilik, savadla yanaşı, insani keyfiyyətlərin vacibliyini konkret bir nümunə timsalında belə izah edib:

- İstanbul şəhərində keçirilən konfransda honkonqlu professorun öz qız övladı ilə bağlı söylədiyi, doğrudan da təsirlidir və günümüzün reallığıdır. Maliyyə ixtisası üzrə təhsil almayan övladı bir gün atasına bank sektorunda işə qəbul edildiyini deyəndə, ata təəccüblənir və tərəddüd etmədən bankla əlaqə saxlayaraq övladının bu ixtisas üzrə təhsil almadığını bildirir, belə birisinin bank sektorunda işə qəbulunun həqiqət olub-olmadığını bank rəhbərliyindən soruşur. Bank rəhbərliyi isə ataya ümumi səriştəyə, yüksək mənəviyyata və mədəniyyətə, düşüncəyə sahib bir namizədi axtardıqlarını və bankın fəaliyyəti ilə əlaqədar xüsusi təlim veriləcəyini bildirmişdi. Professora deyilmişdi ki, biz çoxdandır, mütəxəssis axtarmırıq. Bizə yüksək insani keyfiyyətlərə malik işçilər lazımdır və sizin qızınız 6 ay ərzində gözəl mütəxəssis kimi formalaşacaq.

Nazir müavini müsahibəsində Azərbaycanın təhsil siyasətində gənc nəslə tolerantlıq, bəşəri və mədəni dəyərlərə hörmət hissini aşılamağın əsas yer tutmasına diqqət çəkib. Bildirib ki, təhsil proqramları, dərsliklər, dərs vəsaitləri hazırlanarkən tolerantlıq, multikulturalizm, bərabər imkanlar ciddi şəkildə nəzərə alınır, digər xalqlara, millətlərə, mədəniyyətlərə qarşı tolerantlıq keyfiyyətləri əsas götürülür.

O, Azərbaycan universitetlərində bakalavriat səviyyəsində "Multikulturalizmə giriş", magistratura səviyyəsində "Azərbaycan multikulturalizmi" fənlərinin tədris olunduğunu diqqətə çatdırıb.

Jurnalın "Media savadlılığı hazırda Avropa İttifaqı, NATO və ABŞ, digər ölkələrdə akkreditə olunmuş nümayəndəlik üçün strateji müdafiə hesab olunur. Siz media savadlılığını ölkəniz üçün strateji müdafiə prioriteti kimi görürsünüzmü?" - sualına F.Qurbanov belə cavab verib:

- Media təhsili və media savadlılığı IV sənaye inqilabları dövründə bütün ölkələr üçün aktuallıq kəsb etməkdədir. İnformasiyaların, texnoloji yeniliklərin sərhədlər aşaraq bütün ölkələrə yayılması qarşısıalınmaz proses olduğu kimi, onun yaratdığı problemləri, zərərli təsirlərini aradan qaldırmaq da bir o qədər prioritet əhəmiyyət kəsb edir.

Biz bu gün internet əsrində, informasiya texnologiyalarının inkişafı dövründə yaşayırıq. Azərbaycanda siyasi plüralizm hökm sürür, azad mətbuat, internet və informasiya orqanları fəaliyyət göstərir, əhalinin böyük bir hissəsi internetdən istifadə edir. Buna görə də media təhsili rəqəmsal texnologiyaların artan təsirlərini nəzərə almalıdır. Bəzən qeyri-obyektiv, etibarlı istinad mənbəyi olmayan informasiyalar cəmiyyət həyatının istənilən sahəsində çaşqınlıq yarada bilər. Buna görə də keyfiyyətli media təhsili strateji müdafiə əhəmiyyəti kəsb edir.

### "Bir sıra hallarda dünya ictimaiyyəti bundan agah olmaya bilər, amma..."

Təəssüf ki, son illər qlobal media vasitələrində separatçı rejimlərin təbliği və təşviqi getməkdədir. Bu yanaşma beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmaqla yanaşı, beynəlxalq təhlükəsizlik üçün ciddi maneədir. Təsadüfi deyil ki, separatçı rejimlərin fəaliyyətini leqallaşdırmaq məqsədi ilə beynəlxalq hüquq çərçivəsində tanınmayan ərazilərdə qeyri-qanuni yaradılmış və fəaliyyət göstərən təhsil müəssisələrinin təşviqi aparılır. Bəzi hallarda isə bu kimi qeyri-qanuni əməkdaşlığı demokratiyanın təsbit olunduğu ölkələrin təhsil müəssisələri də yaradır. Bir sıra hallarda dünya ictimaiyyəti bundan agah olmaya bilər, amma medianın fəaliyyəti bu məsələni işıqlandırmaq və media savadlılığı baxımından insanların əsas missiyası bu kimi halları qınamaqdır.

Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni yaradılan rejimin çətiri altında fəaliyyət göstərən təhsil müəssisələrinin beynəlxalq fəaliyyətinə dair məlumat media vasitələrində yayımlandıqda, məni məyus edir. Düşünürəm ki, media savadlılığının artırılması bu kimi halların qınanmasına gətirib çıxarar.

Media savadlılığı və obyektiv kritik düşüncə yaşadığımız XXI əsrdə müxtəlif manipulyasiyaları dəf etmək üçün çox vacib, həyati bacarıqlardır. Media təhsili vətəndaşlarda media və informasiya risklərinin profilaktikası olaraq müasir media səriştələrinin formalaşdırılmasına, vətənpərvərlik mədəni və mənəvi dəyərlərin tərbiyəsinə yönəlməklə, media savadlılığının səviyyəsini artırır. Media təhsilinin əsas missiyası müasir informasiya şəraitində yeni nəsli gələcək həyata hazırlamaqdır. Onun ən böyük əhəmiyyəti də, fikrimcə, budur.

### "Media savadlılığı təhsil sahəsi üçün də mühüm əhəmiyyət kəsb edir"

"Media savadlılığını təhsil sistemində genişləndirmək üçün hansı imkanlar mövcuddur, hansı məhdudiyyətlər vardır" - sualını F.Qurbanov belə cavablandırıb:

- Şübhəsiz ki, biz qlobal təhsildə baş verən dəyişiklikləri, prosesləri təhlil edir, qiymətləndirir və müsbət təcrübəni milli təhsil sistemimizdə tətbiq etməyə çalışırıq. Bu mənada bəhs etdiyiniz media savadlılığı təhsil sahəsi üçün də mühüm əhəmiyyət kəsb edir. Bunu real dövrün, sənaye inqilabları dövrünün yaratdığı mühüm sosial-siyasi, iqtisadi, texnoloji, kultural dəyərləri də diktə edir. Azərbaycanın təhsil sistemi şəffaflıq, vətəndaş məmnunluğu, əlyetərlik, bəşəri dəyərlərin təntənəsi kimi mühüm dəyərləri özündə ehtiva edir. Bu dəyərlərin ölkəmizdə cəmiyyət üzvlərinə çatdırılmasında isə media savadlılığının mühüm əhəmiyyəti danılmazdır və onun yayılma imkanları, dəyərlərə əsaslanan təhsilin hər bir ailəni, cəmiyyət üzvünü əhatə etməsi, həm də medianın bu posesdə keyfiyyətli fəaliyyətindən asılıdır. Azərbaycan dünya miqyasında tolerant münasibətin modelini yaratmış bir ölkədir və bu, özünü mediaya münasibətdə də göstərir. Təhsil sistemində baş verən proseslərin, müsbət dəyişikliklərin insanlara çatdırılması və hər kəsin bu prosesdə bərabər şəkildə iştirakının təmin olunması yolunda ölkəmizdə media təhsili üçün maneə yoxdur. Əksinə, media təhsilinin ölkəmizdə yayılması üzrə əldə olunmuş müsbət təcrübədən danışa bilərik. Təhsil Nazirliyi artıq bir neçə ildir ki, bu sahədə konkret layihələrlə, təhsil sahəsində media və aşkarlıq problemlərinə dair silsilə tədbirlərin təşəbbüsçüsü kimi çıxış edir. Bu təşəbbüsdə ölkənin bütün media qurumları, ali məktəblərin mətbuat xidmətləri, təhsil ekspertləri iştirak edir və bu təcrübə bəhs etdiyiniz media savadlılığının yayılmasının mühüm aspektlərindən biri kimi qiymətləndirilə bilər. Bundan əlavə, Təhsil Nazirliyinin təşəbbüsü ilə "Təhsil sosial mediada" layihəsi həyata keçirilir ki, onun da məqsədi Azərbaycanda təhsilin inkişafı ilə bağlı strateji hədəflərin reallaşdırılması sahəsində həyata keçirilən islahatyönlü tədbirlərin mahiyyətinin təbliğ və təşviqini gücləndirmək, həmin istiqamətdə aparılan maarifləndirmə işlərinin səmərəliliyini yüksəltmək, habelə bu prosesə ictimai dəstəyin genişləndirilməsini təmin etməkdir.

Ölkəmizin ümumtəhsil müəssisələrində şagirdlərin fəal iştirakı ilə müxtəlif fənn aylıqları, maliyyə savadlılığına, zərərli vərdişlərlə mübarizə, sağlam həyat tərzi, informasiya təhlükəsizliyinə dair müntəzəm silsilə tədbirlər, diskussiyalar, "açıq dərs"lər keçirilir ki, təhsilalanlarda komanda ruhunu və kommunikativ səriştələri aşılayan bu tədbirlər də media savadlılığının yayılması təcrübəsinin mühüm aspektlərindən biri kimi qiymətləndirilə bilər.

Media savadlılığının şagirdlər və tələbələr arasında aşılanması üçün interdisiplinar yanaşma tətbiq olunur. Linqvistik bacarıqları ilə təhsilalanların dünya media məkanına çıxmaq imkanları mövcuddur.

Qlobal informasiyalaşma şəraitində mühüm vəzifələrdən biri gənc nəsli müxtəlif kanallar, həmçinin KİV vasitəsilə daxil olan informasiyaların qavranılmasına hazırlamaqdır. Hesab edirik ki, bu məsələnin həllinin əsas alətlərindən biri kimi özündə bilik və vərdişlər sistemini ehtiva edən, məlumatların keyfiyyətini, səhihliyini qiymətləndirən, xoşagəlməz təhlükəli xəbərlərin kütləvi yayılmasından müdafiə olunmaq bacarığını aşılayan media təhsili ola bilər.

---

# AzTU ilə Abşeron Logistika Mərkəzi arasında memorandum

Azərbaycan Texniki Universitetinin (AzTU) rektoru Vilayət Vəliyev Abşeron Logistika Mərkəzinin direktoru Ziya Ağayev və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Rektor qonaqlara universitet haqqında ətraflı məlumat verib və Abşeron Logistika Mərkəzi ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirib. O, qarşılıqlı elmi, nəzəri və ustad dərslərinin, həmçinin seminarların keçirilməsi ilə bağlı təkliflər səsləndirib.

Abşeron Logistika Mərkəzinin direktoru Ziya Ağayev görülən işlər və layihələr haqqında danışıb, Mərkəzin mütəxəssislərinin AzTU tələbələrinə seminarlar keçməsi ilə bağlı təklifi müsbət qiymətləndirib. Direktor AzTU məzunlarının mərkəzdə işlə təmin olunacağının nəzərdə tutulduğunu da diqqətə çatdırıb.

Görüşdən sonra AzTU ilə Abşeron Logistika Mərkəzi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

---

# "Müasir mərhələdə multikulturalizm"

Naxçıvan Dövlət Universiteti tibb fakültəsində "Müasir mərhələdə multikulturalizm" mövzusunda elmi konfrans keçirilib.

Universitetin rektoru Elbrus İsayev əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan multikulturalizmin Azərbaycan xalqının həyat tərzinə çevrildiyini, dövlət səviyyəsində hər zaman təbliğ olunduğunu bildirib.

"Bu dəyərlərə önəm vermək sahəsində Azərbaycan dünya dövlətləri içərisində nəinki seçilib, beynəlxalq təşkilatlarda mövqeyini də möhkəmləndirib" - deyən rektor 2015-ci ildən universitetdə multikulturalizm fənninin keçirilməsindən danışıb və qeyd edib ki, Naxçıvan Dövlət Universiteti bu fənni tədris prosesinə seçmə fənn kimi daxil edən ilk universitetlərdən biridir.

Fəlsəfə və sosial iş kafedrasının professoru, fəlsəfə üzrə elmlər doktoru Məmməd Rzayev bildirib ki, qlobal problemlərin həllində multikulturalizm mühüm rol oynayır. O, ölkəmizdəki multikultural, tolerant mühitin üstünlüklərindən danışaraq, Azərbaycanın multikulturalizm sahəsində əldə etdiyi uğurların dünya dövlətləri, ölkəmizə gələn qonaqlar tərəfindən də etiraf edildiyi və yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Beynəlxalq münasibətlər kafedrasının müdiri, dosent Şamxal Məmmədov vurğulayıb ki, ölkəmiz dünyada multikulturalizm və tolerantlıq sahəsindəki təcrübəsi ilə də tanınır.

# Bakı Dövlət Universitetində imtahanlara ictimai baxış keçirilib

Bakı Dövlət Universitetində (BDU) 2019-2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyasında imtahanlara ictimai baxış keçirilib.

BDU rektorluğu yanında İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri,Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri, təhsil ekspertləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, media və ictimaiyyət nümayəndələri ilə əvvəlcə müzakirələr aparan rektor Elçin Babayev mövcud qanunvericiliyin və Azərbaycan Respublikası Təhsil nazirinin 2019-2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının keçirilməsi ilə bağlı müvafiq əmrinin tələblərinin nəzərə alındığını, bütün texniki-təşkilati işlərin yüksək səviyyədə həyata keçirildiyini, imtahanların təşkili və keçirilməsi istiqamətində islahatların aparıldığını, imtahanların şəffaf və obyektiv keçirilməsi üçün lazımi şəraitin yaradıldığını və fakültə dekanları, kafedra müdirlərinin qarşısında konkret vəzifələr qoyulduğunu bildirib.

Sonra proses iştirakçıları sessiyanın gedişinə nəzarət edən, tələbə və valideynlərin, həmçinin ictimaiyyətin müraciətlərinin qəbulu və araşdırılması işini həyata keçirən imtahan Qərargahının fəaliyyəti ilə də tanış olublar.

İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri, media nümayəndələri və digər iştirakçılar imtahan keçirilən auditoriyalarda olub və imtahanların gedişini izləyiblər. Eyni zamanda, monitorinq otağında auditoriyalara kameralar vasitəsilə baxış keçirilməsi prosesi ilə də tanış olublar. Onlar görülən işləri yüksək qiymətləndirib, imtahanların şəffaf və obyektiv keçirilməsini, baş verə biləcək bütün neqativ halların qarşısının alınması üçün lazımı tədbirlərin görülməsini təqdir ediblər.

Qeyd edək ki, Bakı Dövlət Universiteti rektorluğu yanında İctimai Nəzarət və Məsləhət Şurasının tərkibinə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslan, Sevinc Fətəliyeva, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, BP şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Milli QHT Forumunun prezidenti Rauf Zeyni, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin koordinatoru Əlimməmməd Nuriyev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı və Modern.az saytının baş redaktoru Elşad Eyvazlı daxildir.

İmtahan prosesində, eyni zamanda, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Həftə içi" qəzetinin baş redaktoru Sevinc Seyidova, Moderator.az saytının baş redaktoru Zülfüqar Hüseynzadə, Report İnformasiya Agentliyinin baş redaktoru Murad Əliyev, *mektebgushesi.az* saytının baş redaktoru Məzahir Məmmədli, o cümlədən təhsil eksperti Kamran Əsədov da iştirak edib.

# Məktəblərin istilik təchizatı daim nəzarətdədir

**Niyazi RƏHİMOV**

Təhsil müəssisələrində normal təlim şəraitini təmin etmək, xüsusən də qış aylarında sinif otaqlarının istiliklə təchizatı Təhsil Nazirliyinin daim nəzarətdə saxladığı məsələlərdən biridir. Bu gün istər paytaxt, istərsə də bölgələrdə yerləşən məktəblərdə istiliklə bağlı hər hansı bir problem yaranırsa, nazirlik ona dərhal reaksiya verir, məsələnin müsbət həllini təmin edir. Məsələnin aktuallığını nəzərə alaraq məktəblərdə istilik təchizatı ilə bağlı mövcud vəziyyəti öyrənməyə çalışdıq.

Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsindən aldığımız məlumata əsasən, respublikamızda fəaliyyət göstərən 4500-ə yaxın məktəbdən 1835 məktəbin qazanxanası təbii qazla təchiz olunub. O, cümlədən son illər istifadəyə verilən 293 modul tipli məktəblərdən 142-si qazlaşdırılıb, digər modul tipli məktəblərin istilik sistemi isə elektrik kombi ilə təmin olunub. İdarədən verilən məlumata görə, qazla təchiz olunmayan digər məktəblər isə dizel yanacağı və odunla qızdırılır.

Məktəblərdəki istilik təchizatı ilə bağlı ucqar rayonlarla da əlaqə saxladıq, bölgələrdə bu sahədə vəziyyəti öyrəndik.

Qazax Rayon Təhsil Şöbəsinin müdiri Nizaməddin Babanlının verdiyi məlumata görə, rayon üzrə 44 ümumitəhsil məktəbi fəaliyyət göstərir. Bunlardan 29 məktəb binasının qazanxanaları təbii qazla, Kəmərli, I Şıx, Xanlıqlar kənd tam orta, I Şıx ümumi orta məktəbləri isə maye yanacaqla qızdırılır. Cəfərli, Hüseynbəyli, Aşağı Salahlı kənd tam orta məktəbləri isə elektrik yağ radiatorları ilə isidilir. Altı məktəbdə- Caylı, II Şıxlı, Sarıvəlli, Yuxarı Əskipara, Orta Salahlı və Fərəhli kəndlərindəki məktəblər isə odunla qızdırılır. Bu məktəblər ehtiyaca görə, yeni 278 m odun yanacağı və odun sobaları ilə 6 saylı ƏMHM tərəfindən tam təmin olunub. Hazırda rayon üzrə bütün məktəblərdə istiliklə bağlı problem yoxdur.

Şöbə müdiri onu da qeyd edib ki, bir sıra məktəblərin istilik sistemlərində təmir işləri həyata keçirilib. Belə ki, daxili imkanlar hesabına Qazax şəhər 1 nömrəli tam orta məktəbə 10 ədəd, Ağköynək kənd orta məktəbinə 14 ədəd, Qazaxbəyli kənd orta məktəbinə 8 ədəd, Qazax şəhər 4 nömrəli tam orta məktəbə 8 ədəd, Xanlıqlar kənd ümumi məktəbinə isə 7 ədəd radiator verilib. Bəzi məktəblərin qazanxanalarında mövcud olan problemlər Təhsil Nazirliyinin dəstəyi ilə aradan qaldırılıb. Nizaməddin Babanlı məktəblərin istilik sistemini daim nəzarətdə saxladıqlarını, şöbənin işçilərinin bu məsələ ilə bağlı vaxtaşırı təhsil müəssisələrində monitorinqlər apardığını da sözlərinə əlavə edib.

Quba Rayon Təhsil Şöbəsinin müdiri Rüfət Hacıyev də məsələ ilə bağlı fikirlərini bildirib. O, rayonda fəaliyyət göstərən 135 ümumtəhsil məktəbində istiliklə bağlı problemin olmadığını deyir. Məktəblərin istilik təchizatının bir sıra vasitələrlə təchiz olunduğunu deyən şöbə müdiri bildirib ki, 135 məktəbdən 15-i qazla, 12 məktəb elektriklə, 20 məktəb maye yanacaq (dizel) ilə, 88 məktəb isə odun yanacağı ilə qızdırılır. Onun sözlərinə görə, cari ildə daha 7 məktəbin qazlaşdırılması nəzərdə tutulur. R.Hacıyev son 3 ildə rayon ərazisində 16 yeni modul tipli məktəb tikildiyini və həmin məktəblərin də qaz və ya elektriklə qızdırıldığını diqqətə çatdırıb. Şöbə müdiri məktəbdənkənar təhsil müəssisələrinin də istiliklə təmin olunduğunu və həmin müəssisələrin qazla qızdırıldığını sözlərinə əlavə edib.

Biləsuvar Rayon Təhsil Şöbəsinin müdiri Akşin Ağbirov da bizimlə söhbətində rayondakı məktəblərdə istiliklə bağlı problem olmadığını deyib. Rayonda ümumilikdə 35 ümumtəhsil müəssisə olduğunu və bunlardan 12-nin təbii qazla, 23 müəssisənin isə doğranmış odunla qızdırıldığını deyib. Bildirib ki, qazanxana ilə işləyən məktəblər Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən qış mövsümünə qədər tam təmir edilib, mövcud problemlər birmənalı şəkildə aradan qaldırılıb.

# UNEC-də distant Çin dili kurslarını bitirən tələbələrə sertifikatlar təqdim olunub





Yanvarın 22-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş distant Çin dili kurslarını uğurla bitirən tələbələrə sertifikatlar təqdim edilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan UNEC-in rektoru Ədalət Muradov Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib. O vurğulayıb ki, Prezident İlham Əliyevin Azərbaycan-Çin münasibətlərinin yüksək səviyyədə olmasına xüsusi diqqət verməsi bugünkü tədbirin uğurlu olmasını əsaslandırır. Rektor Çin dilinin distant tədrisi ilə bağlı təşəbbüslə çıxış etdiyinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya təşəkkür edib.

"Fondun təşəbbüsündən sonra UNEC-də Pekin Xarici Dillər Universiteti və Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutu ilə birlikdə Çin dilinin tədrisinə başladıq. Sevindirici haldır ki, Çin dilinə maraq böyükdür. Bu dilin tədrisi ilə bağlı işləri davam etdirmək niyyətindəyik. Bizim bu dərslərə daha geniş auditoriyanı cəlb etmək imkanımız var", - deyə rektor Ədalət Muradov bildirib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov çıxışında deyib ki, distant Çin dili kursları Heydər Əliyev Fondunun, xüsusilə Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunub. "Kursların təşkilinin nəticəsi olaraq gördük ki, Çin dilinin öyrənilməsinə böyük maraq var", - deyə Heydər Əliyev Fondunun icraçı direktoru qeyd edib. Anar Ələkbərov distant Çin dili kursları təşəbbüsünün layihənin tərəfdaşlarının köməyi və dəstəyi ilə davam etdirmək niyyətində olduqlarını diqqətə çatdırıb.

Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin nümayəndəsi Li Jingsong layihənin daha çox azərbaycanlıya Çin dilini öyrənməyə imkan verəcəyinə əminliyini ifadə edib. O xatırladıb ki, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə həm Azərbaycanda, həm də Çində bir çox layihələr reallaşdırılıb. Li Jingsong yekunlaşan kursun iştirakçılarının dərslərdə əldə etdikləri biliklərlə Çin dili bacarıqlarını daha da mükəmməlləşdirdiklərini vurğulayıb.

Tədbirdə Çin dili kursları üzrə dərslərə başlanılması ilə əlaqədar universitetdə keçirilən təqdimat tədbirini əks etdirən videoçarx nümayiş olunub.

Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun direktoru Rafiq Abbasov bildirib ki, icra olunan layihə Azərbaycan və Çin arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə töhfə verəcək.

Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev tədbirə videobağlantı ilə qoşulub. O deyib ki, bu layihənin icrası Azərbaycan və Çin arasında olan tarixi münasibətlərdən yaranan zərurətdir.

Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin direktoru Soltan Məmmədov təmsil etdiyi qurumun elm və təhsil sahəsindəki fəaliyyəti haqqında məlumat verib. Qeyd edib ki, layihə iki ölkə arasında yüksək səviyyədə olan iqtisadi, ticari, mədəni əlaqələrə müsbət təsir göstərəcək.

Sonda kursu bitirənlərə sertifikatlar təqdim olunub.

Xatırladaq ki, distant Çin dili kursları üzrə dərslərə 2019-cu il sentyabrın 28-də başlanılıb. Bununla əlaqədar universitetdə keçirilən təqdimat tədbirində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.

Çin dilini öyrənməyə yeni başlayan azərbaycanlılar üçün nəzərdə tutulan distant dil kurslarında dərslər 1,5 saat olmaqla həftədə 3 dəfə keçirilib. Distant təhsil üzrə təlimlər ödənişli əsaslarla aparılıb. Sosial cəhətdən dəstəyə ehtiyacı olan şəxslərin təhsil haqları isə Heydər Əliyev Fondu tərəfindən qarşılanıb. Dinləmək, danışmaq, oxumaq və yazmaq dərslərindən ibarət olan elementar səviyyəni bitirən iştirakçılar Çin dilinin ümumi qrammatik quruluşuna bələd olub, sadə fikir mübadiləsi aparmaq bacarığı əldə ediblər. Üç ay davam edən proqram üzrə təlimlər işdən ayrılmadan distant formada keçirilib.

Layihənin tərəfdaşları Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universitetinin nəzdindəki Konfutsi İnstitutu və Pekin Xarici Dillər Universitetidir.

# İKT sahəsində bilik və bacarıqlarını artırmaq istəyənlər üçün

## Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin nəzdində "Cisco Şəbəkə Akademiyası" fəaliyyətə başladı

**Ruhiyyə DAŞSALAHLI**

Yanvarın 24-dən etibarən Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin nəzdində "Cisco Şəbəkə Akademiyası" fəaliyyətə başlayıb.

"İnformasiya texnologiyaları sahəsində bilik və bacarıqlarını artırmaq istəyən mütəxəssislər və eyni zamanda bu sahəyə marağı olan tələbələr üçün nəzərdə tutulan "Cisco Şəbəkə Akademiyası"nda dərslər "Cisco" şirkətinin beynəlxalq proqramına əsaslanır və peşəkar, sertifikatlı mütəxəssislər tərəfindən keçirilir. Təlim kurslarında iştirak etməklə tələbələr yeni şəbəkələr, şəbəkə inzibatçılığı, təhlükəsizlik və "bulud" texnologiyaları nəzəriyyələrini öyrənir, təqdim olunan materiallardan, təlimatçının köməyindən, praktiki laboratoriyalarda real və virtual sistemlərdən istifadə edərək, biliklərini artırırlar və rəsmi onlayn resurslarına çıxış imkanı qazanırlar.

"Cisco Şəbəkə Akademiyaları" proqramının Azərbaycan üzrə meneceri Emin Seyidovun sözlərinə görə, Akademiyada "Get connected", "Introduction to Cyber Security", "Introduction to IoT", "IT Essentials", "Cyber Security Essentials" üzrə təlim kursları təşkil ediləcək. Həmin istiqamətlər üzrə kurslardan keçən iştirakçılar şəbəkə inzibatçılığı sahəsində başlanğıc və yüksək səviyyəli biliklərə yiyələnəcək, yeni karyera qura və mövcud karyeralarında yüksəlmək imkanı qazanacaqlar: "Bu proqram dünyada tələbələrə İKT sahəsində inkişaf edib, bu sahədə karyera qurmağa imkan verir. Təhsilalanlar şəbəkə texnologiyaları, informasiya təhlükəsizliyi və proqramlaşdırma sahəsində bacarıqlar əldə edirlər. Kursu bitirən tələbələrə sertifikat verilir. Ancaq onlar beynəlxalq imtahanı verdikdən sonra beynəlxalq sertifikat da alırlar. Ölkəmizdə İKT sahəsində kadr çatışmazlığını nəzərə alsaq, əminliklə deyə bilərəm ki, sertifikat alan tələbələrə iş tapmaq ümumiyyətlə problem olmayacaq".

Kurslar müxtəlif müddətləri əhatə edəcək. Ən uzunmüddətli kurs 210 saat təşkil edir.

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Rəşad Xanlarov "Cisco Şəbəkə Akademiyası" ilə imzalanan anlaşmaya diqqət çəkib. Əldə edilən razılaşmaya əsasən, şirkətlə məzmunun baza bloka daxil edilməsi, İKT ixtisasında məzmunun əlavə olunması, qısamüddətli kurslar, kiber-təhlükəsizlik ixtisasının formalaşması istiqamətləri üzrə əməkdaşlıq nəzərdə tutulub. Bu əməkdaşlığın tərkib hissəsi olaraq artıq Mərkəzin təhsilalanları informasiya-kommunikasiya texnologiyaları sahəsində yeni texniki biliklər əldə etmək imkanı qazanıblar: "Yenicə fəaliyyətə başlayan "Cisco Şəbəkə Akademiyası" müxtəlif istiqamətlər üzrə qısamüddətli kurslar təşkil edəcək. Həmin kursların iştirakçıları qısa müddət ərzində texniki bilik qazanaraq əmək bazarında özlərinə yeni iş imkanları əldə edəcəklər".

R.Xanlarovun sözlərinə görə, bu əməkdaşlıq şəbəkə sistemlərinin hazırlanması, beynəlxalq sertifikatlaşdırma imkanı da yaradacaq: "Təhsilalanların həmin kursları bitirdikdən sonra beynəlxalq sertifikat əldə etmək imkanları olacaq. Belə ki, keçiriləcək təlimlər sayəsində tələbələr "Cisco sertifikatlı şəbəkə mütəxəssisi" (CCNA) və ya "Cisco sertifikatlı şəbəkə peşəkarı" (CCNP) statuslarını qazanmaq üçün beynəlxalq imtahanlara hazırlaşa biləcək və real tədris laboratoriyası üzərində praktiki biliklər qazanacaqlar".

Bakı Dövlət Peşə Təhsil Mərkəzində kursların fəaliyyətə başlaması üçün hər cür texniki imkanlar təmin edilib: "Mərkəzin nəzdində yaradılmış "Cisco Şəbəkə Akademiyası" tələbələrin və əməkdaşların informasiya-kommunikasiya texnologiyalarından (İKT) yüksək səviyyədə istifadəsi üçün hər cür şərait, maddi-texniki baza və kadr potensialı ilə təchiz olunub".

R.Xanlarov əlavə edib ki, növbəti tədris ilindən Bakı Dövlət Peşə Təhsil Mərkəzində hazırda tədris aparılan 8 ixtisasla yanaşı, "Cyber Security" (Kiber Təhlükəsizlik) ixtisasının da tədrisi nəzərdə tutulub.

# Dünyada kadrlar necə seçilir?



⇦ Əvvəli səh.1

Rüstəm QARAXANLI

## Yeni kadr seçimi beynəlxalq təcrübə kontekstində

Məhz buna görə də, yaxın gələcəkdə “Yüksəliş” müsabiqəsi bir növ tarixi missiyanı öz üzərinə götürmüş olacaq.

Dünya təcrübəsinin öyrənilməsi və qabaqcıl yanaşmaların Azərbaycanda tətbiqi baxımından kadr siyasəti vətəndaşların dövlət xidmətinə götürülməsi və sonradan daimi təkmilləşdirmə ilə təmin edilməsi sahəsində mühüm əhəmiyyətə malikdir. Dövlət xidməti hər bir dövlətin fəaliyyətinin təmin olunması prosesinin əsasıdır. Bu prosesdə dövlət xidmətinin fəaliyyətinin effektivliyi və dövlət əməkdaşlarının işinin məhsuldarlığı mühüm əhəmiyyət kəsb edir. Kadrlarla işi, beynəlxalq təcrübəni (Böyük Britaniya, Fransa, Almaniya, ABŞ, Yaponiya və s.) öyrəndikcə görünür ki, dövlət xidməti sahəsində işlə təminatın müsabiqə yolu daha populyardır və belə demək mümkündürsə, əsas növlərdən biridir. Beynəlxalq təcrübənin yaxından öyrənilməsi Azərbaycan kimi gənc müstəqil dövlətlər üçün olduqca vacibdir.

BÖYÜK BRİTANİYAda dövlət xidməti sahəsində çalışmaq istəyən vətəndaşlar müvafiq qurumlara ərizə ilə müraciət edirlər. Növbəti mərhələdə onları şifahi müsahibə gözləyir. Ardınca isə vətəndaşın təqdim etdiyi sənədlərin öyrənilməsi mərhələsinə qədəm qoyulur. Bütün bunlardan sonra isə onun müsabiqədə iştirakına ya icazə verilir, ya da bu və ya digər səbəblərdən istəyi təmin olunmur.

Böyük Britaniyada dövlət xidmətçilərinin professional fəaliyyətinin qiymətləndirilməsi üçün onların xidməti fəaliyyətlərinə dair bir sıra göstəricilərinin təhlili həyata keçirilir. Hazırda Britaniyada qiymətləndirmə sistemi özündə 10 kriteriyanı ehtiva edir:

- Təhsil;
- Şəxsiyyət və xarakter;
- Mühakimə qabiliyyəti;
- Məsuliyyət;
- Təşəbbüskarlıq;
- Dəqiqlik;
- İşgüzarlıq və takt;
- Rəhbərlik bacarığı;
- Xidmətdə davranış;
- Çalışqanlıq.

Bu kriteriyaların hər biri öz növbəsində üç səviyyəyə bölünür:

- Ortadan aşağı;
- Orta;
- Ortadan yuxarı.

Bu qiymətləndirmə sistemi əsasında dövlət işçisi xidmətdə yüksəlməyə nail ola və ya əksinə - olmaya bilər. İkinci halda səbəblərə dair səhih hesabat tələb olunur.

ALMANİYAda dövlət işçilərinin fəaliyyətini reqlamentləşdirən başlıca normativ-hüquqi akt “Məmurlar haqqında” Qanundur. Dövlət xidmətinə qəbul zamanı vətəndaşlardan bir sıra kriteriyalara əməl etmələri tələb olunur. Daha doğrusu, bu kriteriyalara uyğunluq olduqca vacibdir. Söhbət aşağıdakılardan gedir:

- Stressə davamlılıq;
- Xidməti fəaliyyətə dair motivasiyanın əsaslandırılması;
- Vəzifəyə dair savadın mövcudluğu və s.

Xidmət ərzində irəliləmə və karyera yüksəlişi detallı şəkildə işlənilmiş bir sıra şərtlərin yerinə yetirilməsini tələb edir. Bu şərtlər xidmət səviyyəsi və xidmətin kateqoriyalarından asılı olaraq müxtəlif ola bilər. Ümumi qəbul edilmiş qaydaya əsasən, dövlət işçisi karyera yüksəlişi üçün imtahandan keçməlidir. Hər bir vəzifə üçün namizədin təhsili və savadından irəli gələn tələblər qoyulur. Almaniyada dövlət xidmətinin özəlliklərindən biri də uzunmüddətli ixtisasartırma və xidmətə hazırlıq prosesidir. Vəzifəli şəxsin həmin vəzifədə işləməsini tənzimləyən attestasiya müxtəlif kriteriyalar əsasında üç ildən bir keçirilir. Xidməti işin keyfiyyətinin qiymətləndirilməsi bal sistemi ilə ölçülür.

Vətəndaşların dövlət xidmətində işlə təminatının müsabiqə yolu FRANSAda da prioritet istiqamət hesab edilir. Bu yolda hər bir vətəndaş tam bərabər hüquqlara malikdir, dövlət işinə götürülmə zamanı heç bir ayrı-seçkilik, o cümlədən cinsi mənsubiyyətə görə fərqləndirmə ola bilməz. Ancaq reallıq belədir ki, bir çox hallarda vətəndaş hər hansı vəzifəyə iddia, ancaq mövcud hökuməti tənqid edirsə, onun dövlət xidmətinə götürülməsi prosesi yaxşı halda çətinləşir, əksər zamanlar isə istəyi rədd edilir. Yeri gəlmişkən, belə hallarda dövlət işinə iddia edən vətəndaşa ünvanlanmış tələblər mahiyyət və məzmunca Böyük Britaniyadakına çox bənzəyir.

Ümumilikdə Fransada dövlət xidmətində təmsil olunmaq məqsədilə müsabiqədə iştirak edən şəxsdən beş fundamental şərtə uyğunluq tələb olunur:

- Fransa vətəndaşlığı;
- Siyasi hüquqların olması;
- Qanunlara riayət edilməsi;
- Orduda xidməti tənzimləyən aktlara müsbət münasibət;
- Arzulanan işin tələb etdiyi fiziki yararlılıq.

Fransa dövlətinin rəhbərliyi kadr siyasətində yüksək kvalifikasiyalı kadr heyətinin formalaşdırılmasını qarşısında duran başlıca məqsədi kimi qəbul edir. Bu məqsəd isə özündə sərt professional seçim prosesini ehtiva edir. Seçim ərzində professional-şəxsi hazırlıq, aktiv ideoloji yetkinlik ciddi amillər hesab olunur. Dövlət isə öz növbəsində üzərinə layiqli sosial-iqtisadi təminat, kadr yüksəlişi üçün şəffaf sistem vəd edir.

Fransada məmurun işinin nəticələri onun bacarıqları və professional kompetensiyalarının öyrənilməsi əsasında 20 ballıq sistemlə qiymətləndirilir. Dövlət xidmətçisinin qiymətləndirilən bacarıqlarının bəziləri aşağıdakılardır:

- Professional bilik və bacarıqlar;
- Kommunakabellik;
- Kollektivdə işləmək bacarığı;
- Professional inkişaf və özünüinkişaf bacarığı;
- İdarəçilik qabiliyyəti və s.

Müasir dünyada, xüsusilə də Qərb praktikasında dövlət işçilərinin təhsil səviyyəsinin yüksəldilməsi geniş yayılmış təcrübədir. Söhbət təbii ki, tək dövlət işçilərindən getmir, belə ki, hazırda təhsil və iş fəaliyyətinə dair bilik əldə etmə prosesinin zamanla məhdudlaşması anlayışı yoxdur. Təhsil və tədris prosesi daimi və davamlı xarakter daşıyır. İxtisasartırma, yenidən ixtisasalma, ixtisasın dəyişdirilməsi Qərb təcrübəsində kadr siyasətinin mühüm sütunlarından birini təşkil edir. Bu baxımdan, Fransa nümunəsini qeyd etmək olar. Fransada kadrların təkmilləşdirilməsi və kvalifikasiyalarının artırılması prosesi özündə bir sıra növləri əks etdirir:

*1. Universitet hazırlığı.* Ali məktəblər - universitetlər, siyasi və hüquqi institutlar dövlət xidmətində çalışmaq üçün işçilərin hazırlığı ilə məşğul olurlar. Onlara fundamental ümumi nəzəri hazırlıq keçilir. Dövlət işçiləri burada dövlət idarəçiliyi sahəsinə dair ixtisaslaşma prosesindən keçib yerli idarəetmə orqanlarından tutmuş müxtəlif nazirliklərədək fərqli vəzifələrə göndərilir, işlə təmin olunurlar;

*2. Kadrların ixtisaslaşmış institutlarda hazırlığı.* Fransada dövlət işçilərinin xidmətə hazırlığı ilə məşğul olan təqribən 70-dək institut var. Onların sırasında Administrasiyanın Milli Məktəbini, habelə mühəndis-texniki institutları xüsusilə qeyd etmək lazımdır. Bütün bu sistemin əsasında kadrların hazırlığı, təkmilləşməsi, yenidən hazırlığı və kvalifikasiyalarının artırılması yolu ilə idarəetmə orqanlarında işlə təminatı dayanır.

**Müasir dünyada, xüsusilə də Qərb praktikasında dövlət işçilərinin təhsil səviyyəsinin yüksəldilməsi geniş yayılmış təcrübədir. Söhbət təbii ki, tək dövlət işçilərindən getmir, belə ki, hazırda təhsil və iş fəaliyyətinə dair bilik əldə etmə prosesinin zamanla məhdudlaşması anlayışı yoxdur. Təhsil və tədris prosesi daimi və davamlı xarakter daşıyır.**

*3. İstehsalatdan ayrılmamaqla hazırlıq.* Bu, ənənəvi tədris növüdür və hər bir dövlət işçisi rəhbərlik və xidmət üzrə həmkarları ilə əlaqəli şəkildə bu prosesdən keçir. Bu növ tədrisin aşağıdakı formaları mövcuddur:

- Təcrübə mübadiləsi;
- Əməyin qabaqcıl metodlarının öyrənilməsi;
- Xidməti səlahiyyətlərin icrası ilə paralel olaraq biliklərin təkmilləşdirilməsi və yeni bacarıqların qazanılması.

*4. Təcrübəli mütəxəssislərin nəzarəti altında konkret vəzifəyə dair müəyyən proqram əsasında ixtisasartırma.* Bu formada təkmilləşmənin məqsədi işçini gələcək funksiyalarına hazırlamaqdır. Proses zamanı işçi ezamiyyətə göndərilə, fəaliyyəti üzrə normativ aktlara dair layihələrin hazırlanmasında iştirak edə, müvəqqəti olaraq özündən vəzifəcə böyük işçinin səlahiyyətlərini icra edə bilər.

YAPONİYAda məmurlar, dövlət müəssisələrində çalışan şəxslər, dəmir yolları sisteminin işçiləri, televiziya əməkdaşları, polis, hərbçilər və dövlət məktəblərində çalışan vətəndaşlar dövlət xidmətçisi hesab olunurlar. Burada vətəndaşların dövlət işində təmsil olunmaq istəyinə dair bərabərhüquqlu yanaşma hökm sürür. Yaponiyada dövlət işində işləmək üçün mütləq halda ölkə vətəndaşı olmaq lazımdır. Adətən vəzifəyə götürülmək üçün sıravi yapon müsabiqədən keçməlidir. Müsabiqə həm yazılı, həm də şifahi ola bilər. Dövlət işçisinin vəzifə yüksəlişi üçün də imtahandan keçməsi vacibdir.

Hər il idarə və ya müəssisə rəhbəri tabeçiliyində olan dövlət işçilərinin qiymətləndirilməsini həyata keçirir. İmtahanın nəticələrinə uyğun sənəd tərtib olunur. Nəticə iki hissədən ibarətdir: birincidə işçinin sənədlərlə işləmək bacarığı, icraçılıq intizamı, təşəbbüskarlığı və gördüyü işin keyfiyyəti, ikincidə isə rəhbərin işçi barədə rəyi öz əksini tapır.

ABŞ-da kadrların seçimi və yenidən ixtisaslaşması prosesində imtahan olunanların mənəvi keyfiyyətlərinə xüsusi önəm verilir. Mənəvi kodeksə görə, dövlət işçisinin üzərinə bir sıra etik xarakterli öhdəliklər düşür. Məsələn, ABŞ Konstitusiyası və qanunlarının müdafiəsi, hüquqazidd əməllərin qarşısının alınması, dövlət xidmətində korrupsiya halları ilə mübarizə və bir sıra digər vəzifələr. Kadrın və ya namizədin yuxarıdakı xüsusiyyətlərə uyğun gəlib-gəlməməsi müstəqil komissiya tərəfindən yoxlanılır.

Qeyd edilməlidir ki, dövlət xidməti institutunun bərqərar olması və inkişafının vacib şərtlərindən biri də işçilərin sayının optimallaşdırılması, bürokratik aparatın məhdudlaşdırılması, bürokratiyanın səviyyəsinin endirilməsi, nəticə etibarilə büdcədən dövlət xidməti sahəsinə ayrılan vəsaitə qənaətin edilməsidir. Bu, hazırda ümumdünya tendensiyasıdır və şübhə yoxdur ki, Azərbaycanda da olduqca aktualdır.

Müasir dünyadakı təcrübə, xüsusilə demokratik sistemlərdəki mütərəqqi praktikanı öyrəndikcə görmək olar ki, bu gün kadrların toplanması, imtahandan keçməklə işlə təmin olunması prosesinin üç fərqli sistemi mövcuddur:

*1. ABŞ sistemi.* Bu yanaşmada fərdilik sosial əlaqələrin başlıca mexanizmi qismində çıxış edir;

*2. Yaponiya sistemi.* Kollektivizm və qrup dəyərlərinin fərdilikdən üstünlüyünü əks etdirən yanaşmadır;

*3. Qərbi Avropa sistemi.* ABŞ və Yaponiya sistemlərinin simbiozundan ibarətdir.

Fərqli forma və metodlardan istifadə etmələrinə baxmayaraq, bütün bu sistemləri birləşdirən amillər də az deyil. Onların hər biri insan faktorunun aktivləşdirilməsi və daimi innovasiyalara əsaslanır. Adıçəkilən dövlətlərdə vətəndaşların dövlət xidmətinə götürülməsi və fəaliyyətləri ərzində attestasiyadan keçmələri zamanı onların psixoloji keyfiyyətləri, stresə davamlılıqları, mürəkkəb böhranlı anlarda davranışları mühüm əhəmiyyət daşıyır. Yalnız bu keyfiyyətlərin öyrənilməsindən sonra bu və ya digər şəxsin dövlət işində işləmək perspektivinə dair rəy verilir.




## Elmi araşdırmalara görə dünyada liderlik edən ölkələr

Oruc MUSTAFAYEV

ABŞ Milli Elm Fondunun (NSF) məlumatına əsasən, 2018-ci ildə dünyada elm və mühəndislik sahəsində 2555959 məqalə dərc olunub. Bu da on il əvvəl qeydiyyata alınmış 1755850 məqalədən daha çoxdur.

Son on il ərzində bu sektorda qlobal tədqiqatların həcmi hər il təxminən 4% artıb, Çinin artım tempi isə dünya üzrə orta göstəricilərdən iki dəfə çoxdur. ABŞ 2008-ci ildə bu sahədə lider olsa da, hazırda elmi-tədqiqat işləri sahəsində dünyanın aparıcı ölkəsi kimi Çin tərəfindən sıxışdırılıb.

ABŞ 2008-ci ildə 394979 elmi məqalə dərc etdirməklə Çini (249049) qabaqlayıb. Keçən il isə Çin 528263 məqalənin dərci ilə 422808 məqalə dərc etdirmiş ABŞ-ı üstələyib. Hindistan 2018-ci ildə 135788 elmi məqalə ilə üçüncü yeri tutub. Avropa İttifaqının dərc olunmuş məqalələrinin ümumi sayı 622000 təşkil edib ki, bu da ümumi dünya göstəricisinin dörddəbiri deməkdir. Bu göstərici Çin üçün 20,67, ABŞ üçün 16,54 faizdir.

# "Azadlığa gedən yolun zirvəsi"



Yanvarın 17-də Bakıdakı Həzi Aslanov adına 175 nömrəli tam orta məktəbdə Azərbaycanın azadlıq və müstəqillik mübarizəsi tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılmış 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş "Azadlığa gedən yolun zirvəsi" adlı anım tədbiri keçirilib.

Tədbirdə məktəb rəhbərliyi, müəllim və şagird kollektivi, valideynlər iştirak ediblər. Məktəbin gənclərin çağırışaqədərki hazırlığı müəllimi Fizuli Əzizov qanlı faciə haqqında məlumat verərək tədbiri açıq elan edib. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra şagirdlərin ifasında faciəni əks etdirən şeirlər səsləndirildi, mahnılar söyləndi, səhnəciklər nümayiş etdirildi. Sagirdlər tərəfindən nümayiş etdirilən ədəbi-bədii kompozisiyada 6 d sinif sagirdlərindən Araz, Gövhər, Səadət, Rəhman, Akif, Nuranə, 8 d sinif şagirdlərindən Nərgiz, Aylin, Zəhra, Nəsimi, Pəri, Ayan, 9 d sinif şagirdi Elnarə, 11 ç sinif şagirdlərindən Aygün və Ülvü çox fəal iştirak etdilər.

Tədbir boyu fonda 20 Yanvar hadisələrini əks etdirən slaydlar, videoçarxlar nümayiş olundu. Tədbirdə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor Əmir Əliyev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin sektor müdiri Fuad Babayev və "Tərəqqi" liseyinin direktoru Nasim Abışov çıxış edərək vurğuladılar ki, 20 yanvar hadisəsi xalqımızın tarixi yaddaşına həkk olunmuş ən qanlı faciələrdəndir. Keçmiş sovet ordusunun qarşısına silahsız, əliyalın çıxaraq canlarından keçən 20 yanvar şəhidləri hər zaman xalqımızın xatirəsində qəhrəman kimi qalacaqdır.

Tədbirin sonunda çıxış edən məktəbin direktoru, fəlsəfə doktoru Tural Mirzəliyev belə tədbirlərin şagirdlərdə milli qurur hissinin formalaşmasında oynadığı müstəsna rolundan danışıb. O, gənc nəsildə vətənpərvərlik hissinin təbliği baxımından bu cür tədbirlərin davamlı olaraq keçirilməsinin əhəmiyyətindən söz açaraq şagirdləri vətənpərvərliyə səsləyib.

Tədbirin təşkilatçısı, məktəbin ingilis dili müəllimi, qabaqcıl təhsil işçisi Gülşən Şiriyevadır. Tədbirdən öncə G.Şiriyeva rəhbəri olduğu 6 d sinif şagirdləri ilə birgə Şəhidlər xiyabanını ziyarət edib.

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 2081, **Sifariş** 253

**Məsul növbətçi:** N.Rəhimov

## Universal robot-jurnalist sınaqdan keçirilir



Belarusda ilk dəfə insan müdaxiləsi olmadan həmsöhbətlərə mənalı suallar verə və cavablar əsasında nəşrlər üçün mətn hazırlaya biləcək süni intellekt sınaqdan keçirilir. Neyron şəbəkəsinin fikir liderləri ilə "danışması", hətta yerli nəşrlərdən birində jurnalist kimi fəaliyyət göstərməsi planlaşdırılır.

HostFly.by hostinq-provayderinin rəhbəri Aleksandr Xmıl neyron şəbəkəsinin hazırlanma prosesinin Rusiya-Belarus proqram şirkəti tərəfindən həyata keçirildiyini bildirib. Onun sözlərinə görə, HostFly.by qeyri-adi layihəyə internetdə neyroşəbəkə yerləşdirilməsi üçün lazımlı resurslarla təmin edərək texniki dəstək verəcək.

**www.belta.by** saytının məlumatına görə, robot-jurnalist həmsöhbətini qiymətləndirə və konkret bir şəxs haqqında məlumatlara əsaslanan suallar yarada bilər. Robot, həmçinin həmsöhbətin psixoloji qiymətləndirməsini aparacaq və onda emosional reaksiyalar doğura bilən sualları seçə biləcək.

Xatırladaq ki, ötən il HostFly.by məhsulun təsviri ilə yanaşı, qoxusunun da duyulduğu onlayn mağazanın layihəsini hazırlayıb. Belə ki, təqdim olunan layihənin həyata keçirilməsi nəticəsində onlayn mağazaların sahibləri qoxunu çatdırmaq üçün müştərilərə qoxular dəsti olan xüsusi lövhələri pulsuz göndərə biləcəklər. Müəyyən əmtəə malına baxarkən lövhə xüsusi proqram təbiqi ilə smartfona və ya kompütera qoşulacaq və alıcı virtual sayğacda gördüyü məhsulun qoxusunu hiss edə biləcək. Hostinq-provayder bu siyahını daha da genişləndirmək və öz meydançasına yeni perspektivli layihələri cəlb etmək niyyətindədir.

## Süni intellektin yazdığı mətn ilk dəfə müəllif hüquqları ilə qorunur



Çinin Şencjen şəhərindəki məhkəmə süni intellekt ilə yazılmış məqalələrin müəllif hüquqları ilə qorunmasına qərar verib. Bu "süni intellektin müstəqil yaradıcılıq vahidi kimi ilk tanınmasıdır".

Məhkəmə qərarı son beş ildə "Dreamwriter" adlı proqram təminatını yayımlayan "Tencent" şirkətinin məhkəmələrinə aiddir. Bunlar adətən biznes və maliyyə ilə əlaqəli materiallardır. 2018-ci ildə "Yingxun Technology Company" şirkətinin onlayn platforması öz veb-saytında süni intellekt əsasında yaradılmış "Tencent" mətnini təkrar yayımlayıb. Mətn avtomatik və müəlliflərin iştirakı olmadan yazıldığını bildirən nəşr üçün məsuliyyətdən imtina ərizəsini özündə saxlayıb.

**www.hightech.fm** saytının məlumatına əsasən, məhkəmə materialın mətninin və ifadəsinin orijinal olduğunu müəyyən edib. Buna görə xəbəri yazılı əsər kimi təsnif edib və onun müəllif hüquqları ilə qorunduğunu bildirib. Qeyd edək ki, "Tencent" alqoritmlərdən istifadə edərək jurnalistməzmunlu yazıları yayımlayan yeganə şirkət deyil. "Associated Press" agentliyi də idman xəbərləri və bəzi biznes materialları dərc etmək üçün süni intellektdən istifadə edir. Çikaqo şirkəti "Narrative Science" biznes-analitika mövzuları üzrə materialların yaradılması üçün süni intellektdən yararlanır.

Süni intellekt alqoritmləri artıq insan kimi olduqca inandırıcı mətn yaratmaq imkanına malikdir. Elm adamları bunun saxta xəbərlər yaymaq üçün yeni üsul olacağından narahatdırlar. Hazırda süni intellekt hətta, özünün yazdığı mətnləri aşkar edə bilir.

## Etibarsız sayılır

**Bakı şəhər** 238 nömrəli tam orta məktəbin VIII sinfini 1989-cu ildə bitirmiş Nəcəfova Fatimə Gümüş qızına verilmiş 609636 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 68 nömrəli texniki peşə məktəbi tərəfindən 1992-ci ildə Nəcəfova Fatimə Gümüş qızına verilmiş Г-384467 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Rəsullu kənd tam orta məktəbini 1989-cu ildə bitirmiş Cavadov Nəsimi Təyyar oğluna verilmiş AK-548164 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Talış kənd tam orta məktəbini 1992-ci ildə bitirmiş Abdullayev Davud Əzizxan oğluna verilmiş A-238948 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Novruzova Gövhər Ənvər qızına verilmiş A-495580 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Qabaqçöl qəsəbə tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Mollayev Mahər Məhəmməd oğluna verilmiş 267 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Z.Əliyeva adına 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş İsgəndərov Nail Vüsal oğluna verilmiş 220822 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Salmanova Vüsalə İsa qızına verilmiş B-257936 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Kərimova Vüsalə Fazil qızına verilmiş B-367383 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Ağabəyli kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Babayev Qəşəm Xanmirzə oğluna verilmiş A-354602 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Vəlizadə Nicat Azər oğluna verilmiş A-301941 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Kənd Təsərrüfatı Texnikumu** (indiki Lənkəran Dövlət Humanitar Kollec) tərəfindən 1981-ci ildə Hüseynov Seyidağa Səndəl oğluna verilmiş БТ-594322 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təzə Alvadı kənd 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Qurbanova Samilə Məhərrəm qızına verilmiş B-298750 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Muradlı kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədova Afaq Abid qızına verilmiş A-727487 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Rəncbər kənd tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Əliyeva Güllü Ayaz qızına verilmiş 95414 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş İbayeva Arəstə Mirbağır qızına verilmiş 391054 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** S.Vurğun adına 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Məmmədov Səbuhi Şahin oğluna verilmiş A-385203 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**10 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2004-cü ildə Məmmədov Elçin Nizami oğluna verilmiş 077658 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 91 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Eyvazov Emil Pərviz oğluna verilmiş B-302014 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Yusifbəyli Yusif Sabir oğluna verilmiş 074008 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 10 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Namazov Dilsuz Möhübbət oğluna verilmiş 217391 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki Tibb Məktəbi** (indiki Şəki Tibb Kolleci) tərəfindən 1999-cu ildə Cəbrayılova Aynur Mikayıl qızına verilmiş AB-II-046728 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2006-cı ildə Hüseynova Məhsəti Namiq qızına verilmiş BB-I-004664 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Mirzəyeva Xanımzər Şahin qızına verilmiş A-207897 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Y.Əliyev adına Milli Aviasiya Akademiyası** tərəfindən 1999-cu ildə Abdullayev İlham Xıdır oğluna verilmiş AB-I-040860 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2016-cı ildə İbrahimli Toğrul Məhərət oğluna verilmiş A-083027 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialı** tərəfindən 2012-ci ildə Lətifova Nüşabə Əsgər qızına verilmiş B-231076 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Dəmirçilər kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Kərimova Nərgiz Knyaz qızına verilmiş B-394030 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 9 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Lütfəliyeva Lalə Lütfəli qızına verilmiş 513058 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 113 nömrəli Peşə məktəbi (indiki Lənkəran peşə liseyi) tərəfindən 1988-ci ildə Cahangirova Şövqiyyə İgid qızına verilmiş Б-245092 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Vilvan kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Əzimov Elçin Rasim oğluna verilmiş B-151303 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2011-ci ildə Mustafazadə Aytən Mustafa qızına verilmiş BB-II-115408 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Culfa şəhər** 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədov Araz Məcnun oğluna verilmiş B-580289 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Rüstəmova Lalə Allahverdi qızına verilmiş A-087683 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci** (keçmiş Bakı Sənaye-Pedaqoji Kolleci) tərəfindən 2017-ci ildə Babazadə Rufanə Rövşən qızına verilmiş AA-103473 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2012-ci ildə Süleymanova Cəmilə İsmayıl qızına verilmiş AA-019713 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qafqaz Universiteti** tərəfindən 2016-cı ildə Aslan Ahmet Feryat oğluna verilmiş A-083556 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Yuxarı Qiyamədlinli kənd tam orta məktəbini 1996-cı ildə bitirmiş Behbudov Rəşad Rizvan oğluna verilmiş B-463102 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** 3 nömrəli məktəb-liseyi 1986-cı ildə bitirmiş Hüseynov Arzu Hüseyn oğluna verilmiş 245519 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 3 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Şərifov Ramil Ramiz oğluna verilmiş A-106485 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naftalan şəhər** uşaq musiqi məktəbinin yeddinci sinfini 1999-cu ildə bitirmiş Muradova Gülnaz İssmayıl qızına verilmiş 0524 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Naftalan şəhər** uşaq musiqi məktəbinin yeddinci sinfini 2002-ci ildə bitirmiş Muraduva Nərmin İsmayıl qızına verilmiş A-01677 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2014-cü ildə məzun olmuş Balakişiyeva Elza Vəlixan qızına 2015-ci ildə verilmiş AT-002091 nömrəli dublikat diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Dərvişlər kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş Musayev Yasin Tariyel oğluna verilmiş A-001398 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 1997-ci ildə Rəcəbov Namik Əhəd oğluna verilmiş AB-II-020240 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Ayaq-Qərvənd kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Məmişova Aytəkin Allahverdi qızına verilmiş B-321312 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Qəribli kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş İsmayılov Nicat Ələsfər oğluna verilmiş 144870 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Qılqılov kənd ümumi orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Şəfiyeva Aybəniz İlham qızına verilmiş B-251919 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin inzibati-təsərrüfat işləri üzrə prorektoru Fərhad Əliyevə həyat yoldaşı

**ŞƏMSİYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Bakı Dövlət Universitetinin prorektoru Əliş Ağamirzəyevə əzizi

**HƏCƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sarvan İbrahimov Masallı rayonu C.Kazımov adına Qodman kənd tam orta məktəbin müəllimi Bəhram Yaqubova anası

**SƏRGÜL XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



⇦ Əvvəli səh.1

# STEAM bir trend kimi

## Niyə STEAM?

**Şəmil SADİQ,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

STEAM-ı mən necə başa düşürəm? İlk olaraq onu deyim ki, mənim STEAM düşüncəm hədəfsayağıdır. Lakin onu da vurğulayım ki, bu termini ilk eşidən "hamı getdi, biz qaldıq" deyərək dünyanın digər təhsil sistemləri hərəsi öz istədiyi kimi bu mövzuya baş vurub, nələrsə etməyə çalışır. Çünki ümumi vahid bir konsept yoxdur, sadəcə ana məzmun xətləri var: Edərək-yaşayaraq öyrənmə var. Bu anlayışı kim necə anlayır, kim necə öyrədir, kim necə sərgiləyir, artıq onun yaradıcılığına bağlıdır. Hərdən elə qorxuram ki, bu STEAM termini də kurikulum kimi gözdən düşə və sonradan onu gözə qaldırmaq çətin olar. Necə ki bir zamanlar kurikulum sözünü yad bir ünsür görüb, içindən xəbəri olmadan top atəşinə tutanlar var idi. Kimsə demir ki, biz bu kurikulumu bəyənmirik, elə deyir ki, kurikulum nə sistemdir? Bu, o demək idi ki, cəmiyyət ümumiyyətlə, sözün mənasını bilmirdi. Hansısa beynəlxalq bir təşkilat ümumdünya üçün vahid STEAM konsepti hazırlayaraq təqdim etməyib. Bunu edəcək kimsə olduğunu axtarmaq da yanlışdır. Çünki bu günün dünyasında, xüsusən də elmdə belə bir ehkam yoxdur və obyektiv elmdə ola da bilməz. Amerikadan başlanan bu trend hər gün tərkibinə yeni bir dəyər qataraq genişlənməkdədir. Bəlkə də, hansısa ölkənin və ya bir təhsil müəssisəsinin STEAM kurikulumu Amerikadan yaxşıdır, amma əksəriyyət bunu sadəcə robotiks kimi başa düşüb, robot otaqları qurmaqla bizdə də STEAM var, deyə car çəkirlər. Qorxulusu odur ki, biz bunu daha çox göstərib, şou kimi başa düşək. Necə ki, bir zamanlar hamı istəyirdi övladı savadlı olsun, diplomlu olsun, indi isə başa düşür ki, diplomlu olmaq savadlı və bacarıqlı olmaq deyil, STEAM da belə olub. Hər kəs nəsə edir, bunun üzərindən reklamını qurur. İlk olaraq onu deyim ki, STEAM robottexnologiya otağı qurub mən də STEAM tədris edirəm demək deyil. Bu abreviaturanın baş hərflərinin açılışına diqqət etsək STEAM Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat (Sience, Technology, Engineering, Art, Math) sözlərinin baş hərflərindən yaranan qısaltmadır və bu fənləri inteqrasiya edərək tədris etməyi hədəfləyən disiplinlərarası və tətbiqi yanaşmanı əsas götürən təhsil fəlsəfəsinin adıdır) görərik ki, elmlə açılıb, riyaziyyatla bağlanır. Yəni robot, kodlaşdırma işin əsas tərəfi deyil, əsas tərəfi riyaziyyat və elm, yəni fizika, kimya, biologiyadır. Konstruktor tipli oyuncaqlar qurulan bir oyun deyil STEAM, elmin dərinliklərini riyazi təfəkkürlə dərk etməkdir, Komanda işidir, görüb, toxunub, edib öyrənməkdir STEAM.

Bir STEAM liseyinin qurucusuyam. Bu termini eşidən, azdan çoxdan tanış olan valideynlərimizin təqdirini qazandıq ki, övladlarını bizə əmanət etdilər. Lakin hər dəfə verilən sual bu olur ki, bizim uşaqlar nə vaxt STEAM keçəcək, yəni robot quracaq, kodlaşdırma ilə məşğul olacaq? Əslində isə STEAM yanaşması bütün dərslərdə özünü göstərir və inteqrativ dərslərlə bu proses həyata keçirilir. Yanlış reklamın nəticəsidir ki, valideynlərimiz də, bəzən bu sahə ilə məşğul olanlar da, zənn edirlər ki, övladları bir butulka qapağını təkər etməklə, kağızdan pər düzəltməklə, hazır robotları hazırlayıb idarə etməklə STEAM-çı olacaqlar. STEAM kəlməsi bizi məcbur edir ki, bütün fənlərə konseptual baxaq, onu tam olaraq dərk edək. Riyaziyyatsız robotu, elmsiz vertolyotu, yaradıcılıqsız maşını, texnologiyasız həyatı qəbul etməyək. STEAM terminini yaradanlar sonradan bu kəlmədə sənətin olmadığının fərqinə varıb, bir A da əlavə etdilər ki, bu da art-sənət deməkdir. Bir müddətdən sonra kimsə bura İ-İnformasiya, bir ədəbiyyatçısı da çıxıb bir əlavə S-Sosial kəlməsində əvəz etsə, olacaq İSTEAMS - Information, Sience, Technologu, Engineering, Art, Mathematice, Sosial... Deməli, mənəviyyatsız mühəndisin, informasiyasız texnoloqun, zövqsüz mühəndisin, sosiallığı olmayan riyaziyyatçının bu dünyaya faydası çox az olar.

Axı hər kəs bilməlidir ki, hər şey reklam edildiyi və sərgiləndiyi qədər asan deyil. Övladının robot düzəltməyini gözləyən valideyn əmin olmalıdır ki, bunun üçün nəzəri və praktiki bilgi şərtdir.

### BİLGİ nədir bəs?

Bilgi həyat var olduğu gündən bəri insanlığa yön verən və insanın qazanmağa çalışdığı ən dəyərli meyardır. İnsanlıq və sivilizasiyalar bilgi ilə yeni üfüqlərə yelkən açmış, bilgiylə həyat və təbiət insanın xidmətində duraraq ona faydalı olmuş, bilgi ilə insanlar təbiətin onlara verdikləri maraqla yanaşmış və həyatın axarını dəyişə biləcək gücə sahib ixtiralar etmişlər. Tarix boyu bilgiyə sahib olan gücü əldə etmiş, bilgiyə sahib olan idarə edən, bilgiyə sahib olan qərar verən tərəf olmuşdur. Bilgi paylaşdıqca, öyrədildikcə böyüyən məfhum olduğu üçün hazırkı dünya insanının əsas araşdırma sahələrindən biri bilginin asanlıqla ötürülməsi və qarşı tərəfin də bunu sevə-sevə qəbul edə bilməsi məsələsidir. Bu işdə əsas amil xalqların mentaliteti və həmin mentaliteti formalaşdıran dəyərlərdir, yəni öyrətmək hansısa metodu götürüb eynisini tətbiq etmək deyil. Həmin metod sınanmış və uğur əldə edilmiş təcrübənin məhsuludursa, onu tətbiq etməzdən əvvəl özününküləşdirməliyik. Çünki nailiyyət müxtəlif səbəblərə görə dəyişən məfhumdur və götürülən metod hər yerdə uğurlu olacaq deyə bir anlayış yoxdur. Nəticə etibarı ilə bilgi alış-verişi sadəcə müəllim-şagird arasındakı bağ deyil, həm də eyni təbii imkanlara sahib olmayan uşaqların bilinməyən yönlərinin ortaya çıxarıldığı və qabiliyyətlərinin kəşf edildiyi prosesdir. Bu yönləri gün üzünə çıxardan, təbii ki, müəllimdir. Məhz bu səbəbdən gələcək nəsli formalaşdıran güc kimi müəllimlərin əsas vəzifəsi bacarıqların ortaya çıxması üçün uyğun sinif mühitini təşkil etmək olmalıdır. Qalileo Qalileyin dediyi kimi, "heç kimə bir şey öyrədə bilməzsiniz, edə biləcəyiniz tək şey içlərindəki öyrənmə istəyini kəşf etmələrinə yardımçı olmaqdır"-sırf burda STEAM əsaslı təhsil modeli əlimizdən tutur.

Ona görə də, STEAM kəlməsi olmasa da, onun ucundan, bucağından bildiyimiz elə təhsilin özüdür. Hansı ki, biz o təhsili istəyirik, sadəcə bu termin və yozumu ürəyimizdən keçən ifadələrlə edirlər və deyirik ki, bax, elə mən də bunu istəyirdim, övladım bu təhsili almalıdır. Düzgün təhsil və tərbiyə elə STEAM-ın özüdür. Əgər bir müəllim həyati bacarıqlara uyğun dərs keçirsə, sinifdə uşaqları darıxmırsa, birgə bir işin qulpundan yapışırsa, ideyaları gerçəkliyə çevirə bilirsə və ən əsası o innovativdir və yeni texnologiyaları mənimsəyib, onu dərsinə qata bilirsə, fərdi bacarıqları nəzərə alırsa, bu, elə STEAM-ın özüdür. Sadəcə müasir dövrün tələbləri ilə ayaqlaşmağı bacaran müəssisə və məktəb STEAM yönümlü ola bilər.

Dünya təhsilinin yeganə problemi sorğulayan, düşünən, bacaran, yaradan, sağlam, məntiqi təfəkkürü yerində olan bir insan yetişdirməkdir.

STEAM ilk növbədə layihə əsaslı komanda bacarıqlarının formalaşdırdığı bir təhsil sistemidir, məncə. Biri durub ideya verəcək, biri bu ideyanın mühəndis həllini tapacaq, biri onun dizaynını təklif edəcək, biri isə bunun satışını təşkil edəcək. Bu birgəlik olan yerdə bir gücə çevrilmək, yeni bir ideyanı gerçəkləşdirmək mümkündür.

Məsələn, bir humanitar yönümlü adam nə qədər süni intellektdən danışsa da, yeni maşınlar təklif etsə də, bir proqramçı olmazsa, bu ideyanın gerçəkləşməsi mümkün deyil. Ona görə də məktəbdə şagirdlərin hər birinə fərd kimi yanaşılsa, onun uğurunu görə bilərik. Dünyanın ən yaxşı futbolçusu nə qədər desə də, elə bir şey olsun ki, ən mübahisəli qolları qeydə alsın, bunu bir proqramçı həll etməsə, onun sözü söz olaraq qalacaq və ya bir proqramçı futbolçudan, hakimdən onun qaydalarını öyrənməzsə, bunu həll edə bilməz. STEAM bizə onu da deyir ki, şagirdlərə fərdi yanaşın, onlar itib-batmasın.

Təhsil və təlim-tərbiyə zaman-zaman geriyə dönüb, nələrisə götürüb yoluna davam etməlidir və edir də. Bir zamanlar şagird-usta yanaşması hökm sürürdü təhsildə. 19-cu əsrə qədər bu model davam etdi və qəfil elmi partlayış oldu dünya elmində. Ondan sonra isə təhsilə yeni dizayn verilməyə başlandı və 20-ci əsr bu sahədə çoxlu nəzəriyyələrlə, yanaşmalarla yadda qaldı. Sənaye inqilabı yerini informasiya inqilabına verdi. Amma bu proses bizi robotlara oxşamağa yönləndirir, yavaş-yavaş biz öz yaratdıqlarımıza oxşayır, konkret bir istiqamətdə inkişaf edirik. Bu isə bir insan üçün ciddi problemdir. Əgər bir zamanlar öz məişət işlərinin əksəriyyətini özü edən insan indi hər bir sahənin öz mütəxəssisini axtarır, ondan yardım alırsa, bu sosioloqları narahat etməyə bilməz. Axı insan robot deyil ki, bir istiqamətdə irəliləsin. Bu baxımdan STEAM adlı terminin üzərindən bacarıqlı insan yetişdirməyin yolları araşdırılır. Bir çoxları isə bunu robotiks kimi anlayaraq, digər bütün məsələləri kənara atıb, robot döyüşdürmə yarışına meyillənirlər. Halbuki, bizə bu robotları döyüşdürməyi öyrənmək yox, robotları düzəldənlərlə yarışmaq daha çox lazımdır. Bunun başlanğıcı isə ELMdən, Riyaziyyatdan keçir. Bunlar isə vəhdətdədir. Əgər bir insana desən ki, özünə ev tik, ilk olaraq öz torpağını, ora salınacaq evin ölçüsünü hesablamalı, ora xərclənəcək maliyyəni müəyyənləşdirməlidir. Amma bu maliyyəni çıxarmaq üçün lazım olan ilk şey evin sxeminin, dizaynının olmasıdır. Bu isə planlama deməkdir. Layihə hazırlamaq, layihə üzərində işləməyi bacarmaq deməkdir. Bütün bunlar isə bacarıq tələb edir...

### Bacarıqmı, bilikmi?

Bacarıqlar isə nəzəriyyələrlə verilmir təkcə, yaşayaraq öyrənilir. Bu baxımdan təhsildə bacarıqmı, bilikmi mübahisəsini bir daha xatırladır bizə. Təhsilin gəlməli olduğu qənaətlərdən biri isə nəzəriyyələr dövrünün bitib, praktik zəka dövrünün başlamasını qəbul etməkdir ki, bunu da STEAM-la etməyə başlayıblar. Nəzəriyyələrin öyrədilməsi, onların üzərində köklənilməsi insanı bilgi yüklü robota çevirir. Nəzəriyyələrin çöküş dövrünü yaşayırıq desək, yanılmarıq. Artıq praktik zəkanın hökm sürdüyü bir dövrdəyik, dünya insanı texnologiyanın təsirindən meyxoş olub, xumarlanır. İndi onu silkələmək, özünə qaytarmaq şərti dayanır qarşımızda. Ona görə də elmin öyrədilməsini nəzəriyyələrlə yox, praktika ilə öyrətməyə ehtiyac var. Günümüzün şagirdi sadəcə qulaq asmaqla nəsə əldə edə bilmir, çünki onun sakitcə oturub qulaq asması, baxması və öyrənməsi üçün radiolar, televiziyalar, internet var... O internet ki, bəzən ən təcrübəli müəllimin öyrədə bilmədiyini öyrədir insana. İnsanın isə ehtiyacı olan şey, öyrənəcəyini özü edərək öyrənməsidir. Əgər bir kimya müəllimi maddənin sıxlığını düsturlarla, formullarla izah etməyə çalışarsa, o sadəcə mücərrəd şəkildə havada qalar və əksər uşağa maraqlı olmaz. Amma nənələrimizin nişan çayındakı çayın rəngli hissəsi ilə, ağ hissəsinin necə qarışmadığı üzərindən yola çıxılsa, Evrikadan daha maraqlı və yadda qalan olmazmı?!

### Niyə STEAM?

Bizə görə həyat sanki humanitar, sosiologiya, ədəbiyyat üzərində qurulub. Hətta bizə "şair xalq" da deyirlər. Amma dünya bu günə gəlib çatmasına görə texnologiyaya borcludur. Yəni təkərin düzədilməsindən maşının istehsalına qədər - hamısı texnologiyalar üzərindədir. Şərq texnoloji biliklərdən uzaqlaşıb və ya yayınıb. Avropa hardan başladı? XV əsrdə çap maşını istehsal olunub və bu gün həmin sürətlə irəliləyir. İstəsə də, istəməsə də bu mexanizm işləyir. Həyatımızın hər sahəsi üçün texnoloji avadanlıqlar hardan gəlir? Avropadan. Almaniya daha çox üstünlük təşkil edir.

Amerikada Obama tərəfindən başlanılmış STEAM siyasətində deyilirdi ki, bir neçə ildən sonra bu ölkədə yetişən mühəndislər bizi uçuruma aparacaq, iflasa gətirib çıxaracaqlar. Ona görə də bütün ölkəyə mühəndislik adı ilə "Science, technology, engineering and mathematics" proqramını təklif etdi ki, toxunaraq, görərək öyrənən mühəndislər yetişsin.

Gəlin iki böyük ölkə arasında bir müqayisə aparaq. Türkiyə 33-cü illərdə nə ilə başladı? Atatürk "Köy İnstitutları" deyə bir tədris proqramı təsis etdi. Təsərrüfatı, ağır metallurgiyanı inkişaf etdirdi. Bu Köy İnstitutları bugünkü Türkiyənin təməl dirəkləridir. Obama da bunu gördü və mühəndislik sistemi ilə bağlı bütün məktəblərdə xüsusi proqram yazdırdı. Nəzəriyyə yox, təcrübəyə üstünlük verdi: əllə işləmək, zehni işlətmək, yaradıcılığın ortaya çıxması.

### Bu işin əsas mahiyyəti nədir?

Komanda işi. Bizim məktəblərdə problem nədir? 10 uşaqdan biri futbola, biri musiqiyə, biri rəssamlığa meyillidir, biri riyaziyyatı, biri ədəbiyyatı, biri tarixi yaxşı oxuyur, yəni istənilən anda hərə bir tərəfə meyilli olur. Bizdə nə olur? Tutaq ki, bu idmançıdır, gələcəyi parlaqdır və ona Azərbaycan dili, tarix, riyaziyyat fənlərindən iki yazılmalıdır. Dərsini yaxşı oxumadı deyə, sinifdə qalmalıdır.



Komanda işi, layihə əsaslı dərs isə tamam başqa şey deyir. Məsələn: Bir ideya var, gəlin komanda formasında iş görək. Məsələn, biz bir beyin fırtınası keçiririk, bir ideya var ortalıqda, uşaqlar, gəlin bunun üzərində işləyək. Bir uşaq çıxıb deyir ki, mən at düzəltmək istəyirəm. Deməli, ideyanı verdi bir nəfər, mühəndis bunu düzəltdi, zövqlü adam buna dizayn verdi. Başqa biri çıxıb deyir ki, buna təkər qoyaraq, proqramlaşdıraraq, əmr verərək hərəkət etdirərəm. Beləliklə, belə bir layihə çıxır ortalığa. Sonrakı mərhələdə marketinq işin içinə girir və marketoloq deyir ki, mənsə bunu ən yüksək səviyyədə cəmiyyətə təqdim edə bilərəm. Deməli, komanda bir məhsul istehsal etdi, bir ideya ətrafında formalaşdı. Nə qiymətə ehtiyacı var, nə ev tapşırığına. Artıq bunlar ortalığa bir iş çıxartdılar. Heç kim də geri qalmadı, ən passivi də, ən aktivi də bir qulpundan tutur, nəyisə düzəldib ortalığa çıxardırlar.

### STEAM-ın da mahiyyəti budur: DGTE - DÜŞÜN, GÖR, TOXUN, ET!

Nəticədə komanda şəklində fərqli maraqlara sahib olan uşaqları idarə edən müəllimdir. İdarəçilikdə qızıl orta sırf çağdaş müəllim peşəsinə uyğun gəlir: "Əsl idarəçi fərqli maraqları olan insanları eyni məqsəd ətrafında bənzər hərəkət şəkli ilə çalışdırandır".